**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

7 dekabr 2024-cü il №45 (9103) www.muallim.edu.az muallim@media.edu.az

# QƏRBİ AZƏRBAYCAN İCMASI ÜZVLƏRİNİN DOĞMA TORPAQLARA QAYIDIŞ HÜQUQUNU TƏMİN ETMƏK MƏQSƏDİLƏ BEYNƏLXALQ HÜQUQA UYĞUN DİNC TƏŞƏBBÜSLƏRİNİN BEYNƏLXALQ İCTİMAİYYƏT TƏRƏFİNDƏN DƏSTƏKLƏNMƏSİ OLDUQCA ƏHƏMİYYƏTLİDİR

Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcəkdir.

Müxtəlif vaxtlarda dədə-baba torpaqlarından zorla köçürülmüş, hazırda Azərbaycanda və dünyanın bir sıra ölkələrində məskunlaşmış minlərlə Qərbi Azərbaycan əsilli şəxsin hüquqlarının müdafiəsinə həsr edilmiş konfransın işinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan xalqının zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran bu beynəlxalq konfrans yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcəkdir.

**Prezident İlham Əliyevin "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarınamüraciətindən**

*Bakı şəhəri, 5 dekabr 2024-cü il*



## Yeni ixtisaslar yaradıldı, bəziləri ləğv olundu

İxtisasların təsnifatı magistratura və rezidentura səviyyələri üzrə 2011-ci ildə, bakalavriat səviyyəsi üzrə isə 2019-cu ildə təsdiqlənib. 2019-cu ildə bakalavriat səviyyəsi üzrə təsdiqlənmiş təsnifata əsasən qəbul olan tələbələrin məzun olduqda təhsillərini davam etdirmələri üçün magistratura səviyyəsində də təsnifatın uyğunlaşdırılması zərurəti yaranıb.

Bu barədə jurnalistlərə açıqlamasında elm və təhsil nazirinin müavini İdris İsayev bildirib.

Ardı səh. 2

## "Prezidentin sərəncamı anamı çox kövrəltdi"



### "Ailəmin tək təsəllisi Natiqin adının əbədiləşdirilməsidir"

2024-cü il iyunun 25-də mənə zəng gəldi ki, Prezident bu gün imzaladığı sərəncamla Natiq Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adını verdi. Sərəncamın ad gününə təsadüf etməsi, Prezidentinin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı məni bir daha qürurlandırdı".

Bax səh. 6



## "Aldığım bilik, əldə etdiyim təcrübə gələcək uğurlarımın açarıdır"

Süni intellekt sahəsində dünyada tanınmış mütəxəssis olmaq istəyən Hümbət Əhmədovun uğur hekayəsi

Bax səh. 10

## QƏRBİ AZƏRBAYCAN BİZ QAYIDACAĞIQ

"Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi"

*İkinci beynəlxalq konfransın açılışı olub*

Bax səh. 3




## "Azərbaycan məktəbi" jurnalının 100 illik yubiley tədbiri keçiriləcək

Bax səh. 9

## Sabahın alimləri bu günün şagirdləridir

**Fuad Qarayev: "Bu il müsabiqəyə süni intellekt də daxil edilməklə istiqamətlərin sayı 9-a çatdırılıb"**

Bax səh. 10



## "Alimlik qadının intellektual inkişafını önə çıxarır"

**Bolonya Universitetinin doktorantı ilə müsahibə**

Ölkəmizdə qida təhlükəsizliyi sahəsində aparıcı rol oynayan AQTA-/AQTİ və yerli universitetlər, həm də dünyanın qabaqcıl araşdırma institutları arasında əməkdaşlıq çərçivəsində ekspert və beynəlxalq dərəcəli elm adamlarının mübadilələrini həyata keçirərək Azərbaycan elmində bu sahədə yeni təşəbbüslərə imza atmaq niyyətindəyəm.

Bax səh. 11

# AZƏRBAYCAN PREZİDENTİ: "UŞAQLAR CƏMİYYƏTİN SABAHIDIR"

**Uşaqlar cəmiyyətin sabahıdır. Bizim üzərimizə düşən əsas vəzifə onlara aydın səma altında etibarlı gələcək bəxş etməkdir. Ölkəmizdə uşaqlara hərtərəfli qayğının dövlət siyasətinin tərkib hissəsi olması Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bu istiqamətdə bir sıra mühüm işlər görülmüş və görülməkdədir. Uşaqlarımız yüksək təhsil almaq, bacarıqlarını inkişaf etdirmək və istedadlarını üzə çıxara bilmək üçün hər cür imkana malikdirlər.**

**Prezident İlham Əliyevin Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun iştirakçılarına müraciətindən**

## Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu keçirilib

**Dekabrın 5-də "Ekologiya və uşaqlar" mövzusuna həsr olunmuş Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun açılış mərasimi keçirilib. Forum Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Elm və Təhsil Nazirliyi ilə əməkdaşlığı çərçivəsində təşkil olunub.**







Forum Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətini səsləndirdikdən sonra "Biz Azərbaycan uşaqlarıyıq!" adlı videoçarx nümayiş etdirilib.

Sonra isə uşaqlar adından ölkə başçısı üçün hazırlanan, "Yaşıl dünya naminə həmrəylik ili", eləcə də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurlu yekununu təcəssüm etdirən hədiyyə təqdim edilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxış edərək forum iştirakçılarını salamlayıb. Komitə sədri suverenliyi və ərazi bütövlüyü təmin edilmiş Azərbaycanda ölkə ərazisinin bütün bölgələrini təmsil edən uşaqların iştirakı ilə keçirilən ilk forumun işinə uğurlar arzulayıb.

Bahar Muradova forumu günümüz və gələcəyimizin ən vacib mövzuları barədə müzakirə aparmaq, uşaqların öz fikirləri və təşəbbüslərini bölüşmək, daha yaxşı bir cəmiyyət, daha yaşıl bir ölkə və daha təhlükəsiz bir dünya naminə səyləri birləşdirmək üçün gözəl bir imkan kimi qiymətləndirib.

Forumda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan xalqının qarşısında duran əsas məqsədlərdən birinin kimliyini qorumaq, mədəniyyətinə sahib çıxmaq və milli dəyərlərimizi yaşatmaq olduğunu qeyd edib.

Qız uşaqlarının təhsilinin əhəmiyyətindən danışan nazir deyib ki, təhsil daha savadlı, bacarıqlı və güclü millət kimi formalaşmanın əsas amillərindən biridir. Nazir əlavə edib ki, bu istiqamətdə səyləri birləşdirmək və hər uşağa müvafiq qaydada təhsil almaq imkanı yaradılmasına çalışmaq lazımdır.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev öz növbəsində qeyd edib ki, uşaqları iqlim dəyişikliyinin təsirlərindən qorumaq üçün investisiya vacibdir və bu hədəflərə nail olmaq məqsədilə son illər siyasi, iqtisadi və qanunvericilik islahatları aparılır.

Tədbirdə iştirak edən Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsi Saca Faruq Abdullah uşaq və gənclərin təmiz, təhlükəsiz və davamlı ətraf mühit hüququ olduğuna diqqət çəkib, onların planetimizlə bağlı bu gün verdiyimiz bütün qərarları miras alacaqlarını deyib. Azərbaycanın COP29-u uğurla başa vurduğunu qeyd edən UNICEF rəsmisi builki COP-un həm də uşaqların və gənclərin iştirakı, onların iqlim dəyişikliyi ilə bağlı müzakirələrə verdiyi töhfələrlə yadda qaldığını bildirib.

Forum uşaqların rəsmi nümayəndələrlə dialoqu ilə davam edib. Müzakirələrdə iştirak edən elm və təhsil nazirinin müavini Həsən Həsənli, səhiyyə nazirinin müavini İlqar Qasımov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Elektron Təhlükəsizlik Xidmətinin rəisi Samir Rəsulov, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, IV "Yüksəliş" müsabiqəsinin qalibləri Günel Musayeva və Seymur Hüseynov uşaqların suallarını cavablandırıblar.

Forumun ikinci hissəsində uşaqlar müxtəlif mövzular üzrə qruplaşaraq müzakirələr aparıb, müvafiq təkliflərlə çıxış ediblər. Günün sonunda müzakirələrin nəticələri haqqında məlumat verilib, həmçinin forum iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti səsləndirilib.

Qeyd edək ki, tədbirdə Azərbaycanın bütün şəhər və rayonlarından olan 300 uşaq, eləcə də Türkiyə Respublikasını təmsil edən uşaqlar iştirak edib.

# Həssas yanaşma, vətəndaş məmnunluğu



## Elm və təhsil naziri Balakəndə vətəndaşları qəbul edib

Dekabrın 6-da elm və təhsil naziri Emin Əmrullayev Balakən şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Balakən, Zaqatala, Qax, Qəbələ, Şəki və Oğuz sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar işlə təmin olunma, təhsil müəssisələrinin təmir-tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

## Elm və təhsil nazirinin müavini Mavritaniyanın ölkəmizdəki səfiri ilə görüşüb

Dekabrın 3-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Mavritaniya İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sid Əhməd əl-Bekaye Hamadi ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın gələcək inkişaf perspektivləri müzakirə edilib.



## Yeni ixtisaslar yaradıldı, bəziləri ləğv olundu

**(Əvvəli səh. 1-də)**

O qeyd edib ki, bu səbəbdən müxtəlif səviyyələr üzrə ixtisasların cari təsnifatını yenidən işləyərək vahid qərarda təsdiqləmə zərurəti yaranıb. Nəticədə vahid qərarla dörd təhsil səviyyəsi əhatə olunmuş və təsnifatların cədvəlləri təsdiq edilib. Təsdiq edilən təsnifata bakalavriat səviyyəsi üzrə 153, əsas (baza ali) tibb təhsili səviyyəsi üzrə 3, magistratura səviyyəsi üzrə 129, rezidentura səviyyəsi üzrə 44 ixtisas daxil edilib.

Ali təhsilin bakalavriat səviyyəsi üzrə 7 yeni ixtisas ("Riyaziyyat və fizika müəllimliyi", "Data analitikası", "Kənd təsərrüfatı texnologiyaları", "Heyvandarlıq", "Qidalanma və diyetologiya", "Proqram təminatı mühəndisliyi" və "Qida texnologiyaları") təsnifata əlavə olunub. Eyni zamanda 9 ixtisasın adında dəyişiklik edilib.

Bundan əlavə, magistratura və rezidentura səviyyələrində ixtisaslaşmaların siyahısında əmək bazarının tələbələrinə uyğun daha çevik dəyişikliklər etmək məqsədilə hər bir ixtisasa aid olan ixtisaslaşmalar təsnifatdan çıxarılıb və yeni təsnifat yalnız ixtisaslar üzrə tərtib edilib. Məhz bu səbəbdən təsnifatların təsdiqindən irəli gələrək Nazirlər Kabinetinin bir neçə qərarında, o cümlədən "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nda, "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi qaydaları"nda, "Rezidentura təhsilinin məzmunu və təşkili qaydaları"nda müəyyən dəyişiklik edilib.

Dəyişikliyə əsasən, rezidentura və magistratura səviyyələrində hər bir ixtisas üzrə ixtisaslaşmalar həmin ixtisasın təhsil proqramında sahələr üzrə müəyyən olunacaq.

Digər yenilik isə magistratura səviyyəsi üzrə təsnifatda təhsil ixtisaslarının bir ixtisas ("Pedaqogika") altında ixtisaslaşma olaraq verilməsidir.

"Ali təhsilin rezidentura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nda isə 21 ixtisas ləğv edilib, 8 yeni ixtisas təsnifata əlavə olunub və 8 ixtisasın adı dəyişdirilib.

**Yetər KƏRİMLİ**

# QƏRBİ AZƏRBAYCAN
# BİZ QAYIDACAĞIQ

**Dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransının açılışı olub.**

**AZƏRTAC xəbər verir ki, konfransın açılışında Qərbi Azərbaycan İcması haqqında qısametrajlı film nümayiş etdirilib.**

**Sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.**

**Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Qərbi Azərbaycan həqiqətlərinin təbliği sahəsində fərqlənən bir qrup şəxs təltif edilib.**

## "ERMƏNİSTANDAN ZORLA ÇIXARILAN AZƏRBAYCANLILAR ÜÇÜN ƏDALƏTİN TƏMİN EDİLMƏSİ"

### İkinci beynəlxalq konfransın açılışı olub






Konfransda çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri, Milli Məclisin deputatı Əziz Ələkbərli tədbirin Ermənistandan azərbaycanlıların zorla çıxarılmasına, tarixi və mədəni irsimizə vurulmuş zərərlərə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək, qayıdış hüququmuzun təmin edilməsi və ədalətli əsaslarla sülh və barışıq üzrə müzakirələr aparmaq üçün vacib bir platforma olduğunu bildirib.

O, Qərbi Azərbaycan İcması olaraq öz doğma yurdlarına qayıtmaq istəyən yüz minlərlə azərbaycanlının qayıdış hüququ uğrunda mübarizə apardığını deyib: "Təşkilatımız 1989-cu ildən fəaliyyət göstərir. Bu istiqamətdə gördüyümüz işlər Azərbaycan dövlətinin prinsipial və davamlı dəstəyi ilə həyata keçirilir. Xüsusilə 2022-ci ilin dekabr ayında İcmamızı ziyarət edən Prezident İlham Əliyevin İcmanın fəaliyyətinə göstərdiyi diqqət səylərimizi daha da gücləndirmək üçün bizi ruhlandırıb. Prezident İlham Əliyevin konfrans iştirakçılarına bugünkü müraciətində ifadə etdiyi dəstək və qiymətli tövsiyələr böyük əhəmiyyət kəsb edir. Müraciətdə haqq işimizə verilən yüksək dəyər İcmamızın hər bir üzvü üçün güclü motivasiya mənbəyidir", - deyə Ə.Ələkbərli diqqətə çatdırıb.

O vurğulayıb ki, Ermənistan öz ərazisində azərbaycanlıların hamısını ata-baba yurdlarından çıxarıb və bu gün Ermənistanda bir nəfər də azərbaycanlı qalmayıb. Ermənistan qəbiristanlıqlarımızı, mədəni və dini abidələrimizi məqsədyönlü şəkildə məhv edərək, maddi və qeyri-maddi mədəni irsimizə ciddi zərbə vurub. Adət-ənənələrimiz, sosial bağlarımız və həyat tərzimiz böyük ziyan görüb.

"Ermənistan ölkə ərazisindəki Azərbaycan mədəni irsinin vəziyyətinin araşdırılması üçün UNESCO-nun missiya göndərməsinə icazə vermir. Ermənistanın monoetnik cəmiyyət yaratmaq siyasəti bölgənin zəngin etnik və dini müxtəliflik ənənələri və tarixi ilə ziddiyyət təşkil edir. Bu tarixi faktları sadalamaqda məqsədimiz ixtilafı davam etdirmək deyil, ədalət, sülh və barışıq yolunda apardığımız mübarizənin başlanğıc nöqtəsini izah etməkdir. Biz doğma torpaqlarımıza sülh yolu ilə qayıtmaq məqsədinə sadiqik və beynəlxalq hüququn norma və prinsiplərinə hörmət edirik", - deyə o vurğulayıb.

Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu çıxışında Ermənistanın bölgədə davamlı sülh üçün Azərbaycanın xoşniyyətli addımlarına müsbət cavab verməli olduğunu bildirərək deyib: "Cənubi Qafqazı sülh bölgəsinə çevirə bilərik. Silah alıb təkrar hazırlıq işləri görməyin, qonşu dövlətin torpaqlarına təkrar göz dikməyin bir faydası olmadığını hər kəs bilməlidir. 30 illik ədalətsizliyin ardından davamlı sülhün qurulmasının çətin olacağını bilirik. Ancaq Türkiyə olaraq, bölgədə sülh üçün bundan sonra da əlimizdən gələni edəcəyik. Türkiyə olaraq Azərbaycanın həmişə yanında olduq. Azərbaycan təkcə qardaşımız olduğu üçün yox, həm də haqlı olduğu üçün yanındayıq", - deyə M.Çavuşoğlu qeyd edib.

O diqqətə çatdırıb ki, Qərbi Azərbaycan İcmasının fəaliyyəti beynəlxalq hüquqa tam uyğundur, bu, torpaq deyil, insan haqları məsələsidir: "Ermənistanın ərazi bütövlüyünə tam hörmətlə yanaşılsa da, rəsmi İrəvan səmimi müraciətlərə hələ də cavab vermir. Ermənistanın Qarabağı işğal etməsi böyük ağrılara səbəb olub. Bir milyondan çox azərbaycanlı yurd-yuvalarından edilib, onların doğma torpaqlarına qayıtması təmin olunmalıdır. Həmçinin Ermənistanın UNESCO-nun missiyasına icazə verməməsi təəssüf doğurur. Biz həmişə ədalətin qalib gələcəyinə inandıq, nəticədə Azərbaycan suverenliyini tam təmin etdi. Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdə bu gün ciddi təmizləmə işləri və bərpa-quruculuq fəaliyyətləri həyata keçirilir".

Çıxışlardan sonra Qərbi Azərbaycan İcmasının Fəxri üzvlük sertifikatları təqdim edilib. Sertifikatlar 10 ölkəni təmsil edən 16 nəfərə verilib.

Konfrans öz işini panel müzakirələrlə davam etdirib.

Qərbi Azərbaycan İcmasının qayıdış hüququ mövzusunda təşkil etdiyi konfrans iki gün davam edib. Konfransda 51 ölkədən 100-dən çox nümayəndə iştirak edib.

**Azərbaycan xalqı dünya xalqları içərisində həmişə özünün zəngin mədəniyyəti, incəsənəti ilə seçilmiş, özünəməxsus dəyərlər sistem yaratmışdır. Araşdırmalar göstərir ki, tarixi Azərbaycan torpaqlarının hər bir guşəsində xalqımızın dünəni ilə bağlı qiymətli mənbələrə rast gəlmək mümkündür. Hətta düşmən qüvvələr tərəfindən bu mənbələr nə qədər məhv edilməyə çalışılsa da tarixin izlərini qorumaq, gələcək nəsillərə çatdırmaq mümkün olmuşdur. Bu baxımdam vətən tarixi, mədəniyyəti, ədəbiyyatı, görkəmli şəxsiyyətləri ilə bağlı yazılan əsərlər keçmişimizi öyrənmək, gələcək nəsillərə çatdırmaq üçün böyük əhəmiyyət kəsb etmişdir.**

## İRƏVAN AZƏRBAYCANLI PEDAQOJİ MƏKTƏBİNİN ŞƏRƏFLİ YOLU

### Tədqiqat işığında




Tarixdən məlumdur ki, Azərbaycan tarixən çox böyük əraziyə malik olmuş və XIX əsrin əvvəllərində Rusiya imperiyası tərəfindən parçalanaraq hissələrə bölünmüş və Qərbi Azərbaycan ərazisində ermənilər yerləşdirilərək onlar üçün orada dövlət yaradılmış və beləliklə, orada yaşayan soydaşlarımız tədricən sıxışdırılaraq öz doğma yurdlarından didərgin salınmışlar. Tarixi mənbələr göstərir ki, XIX əsrin əvvəllərindən sonrakı dövrlərdə də azərbaycanlılar nə qədər təzyiqlərə məruz qalsalar da Qərbi Azərbaycanda zəngin mədəniyyət yaratmaqda davam etmiş və bu mədəniyyət nümunələri vətən tarixinin qızıl səhifələri sırasındadır. Ona görə də Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti ilə bağlı istər çar Rusiyası dövrünə, istərsə də sovet dövrünə aid tədqiqatların davamlı olaraq aparılması vacibdir. Son illərdə bu istiqamətdə elmi araşdırmaların genişləndirilməsi təqdirəlayiqdir. Belə tədqiqatlar sırasında filologiya üzrə fəlsəfə doktorları dosentlər Könül Həsənova və Cəlal Allahverdiyevin apardığı tədqiqatlar da diqqəti cəlb edir. Onların bu istiqamətdə apardıqları yeni tədqiqatlardan biri "Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi" adlanır. Elmi redaktoru filologiya elmləri doktoru, professor Mahirə Hüseynova olan bu kitab İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin 100 illiyinə həsr edilmişdir.

Kitabın əvvəlində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan təhsili, Qərbi Azərbaycanda maarifçilik, məktəb və pedaqoji fikir tarixinin öyrənilməsi, tədqiqi ilə bağlı sərəncamlarının diqqətə çatdırılması, fikirlərinin verilməsi təqdirəlayiqdir.

Müəlliflərin qeyd etdikləri kimi, bu məktəb 1924-cü ildən 1948-ci ilədək İrəvanda fəaliyyət göstərmişdir. Kitabda bu məktəbin yaranması, fəaliyyəti, onun görkəmli məzunları barədə zəngin məlumat verilmişdir.

Kitabın mühüm bölmələrindən biri "XIX əsrdə və XX əsrin əvvəllərində İrəvanda Azərbaycan ədəbi-mədəni mühiti yeni paradiqma işığında" adlandırılmışdır. Burada, ilk növbədə, haqlı olaraq Ümummilli Liderimiz Heydər Əliyevin bira sıra fərman və sərəncamları, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyi haqqında" 29 dekabr 2006-cı il, "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021-ci il tarixli sərəncamları və digər fərmanları diqqətə çatdırılır, Qərbi Azərbaycanda ədəbi və milli maarifçilik mühitinin dərindən araşdırılması baxımından bu tarixi sənədlərin əhəmiyyəti şərh edilir.

Daha sonra müəlliflər böyük alim Firidun bəy Köçərlinin XIX əsrin axırlarında İrəvan gimnaziyasında dərs deyərkən onun tanış olduğu və fəaliyyətlərinə xüsusi dəyər verdiyi Qərbi Azərbaycan ziyalıları barədə fikirlərinə əsaslanaraq onların yaradıcılıq istiqamətlərini şərh edirlər. Tədqiqatlardan məlumdur ki, Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" adlı əsərində Məşədi İsmayıl Hacı Kazımzadə "Bəzmi" (1846-1888), Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov ("Mü-təlle") (1832-1892), Hacı Seyid Rza Ənür-zadə "Sabir" (1842-1906), Mirzə Əlixan Şəmsül-Hükəma "Ləli" (1845-1907) kimi şairlərin adlarını çəkmiş, onların əruz vəznində gözəl şeirlər yazdıqlarını qeyd etmişdir. "Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi" kitabının müəllifləri müxtəlif elmi mənbələr, şəxsi arxiv materiallarından əldə etdikləri məlumatlar əsasında Mirzə Hüseyn Ağa, Mirzə Cabbar Əsgərzadə, Axund Məmmədbağır Qazızadə, Mirzə Cabbar Məmmədzadə, Cəfər bəy Cəfərbəyov, İbadulla bəy Muğanlinski, Abbas Ağa Fərəcov, Abbas Razi Məmmədzadə, Mirzə Hüseyn Həsənzadə İrəvani, Tərlan xanım Sultanova, Məhəmməd Mirfətullayev və digər görkəmli ədəbiyyat və maarif xadimlərinin İrəvanın ədəbi-mədəni həyatında rol oynadıqlarını qeyd etmişlər. Tarixşünaslıq materialları təsdiq edir ki, Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Eynəli bəy Sultanov, Haşım bəy Vəzirov, Abbas Səhhət, Cəlil Məmmədquluzadə, Həmid bəy Şaxtaxtinski, Abdulla Şaiq, Bəkir Çobanzadə və digər görkəmli şair və yazıçılarımız, maarif xadimlərimiz həqiqətən, İrəvan ədəbi-mədəni mühitinin tanınmış nümayəndələri ilə nəinki sadəcə tanış olmuş, onlar arasındakı yaxın dostluq və yaradıcılıq əlaqələri həmişə nümunə kimi göstərilmişdir. Bu baxımdan kitabın müəllifləri Könül Həsənova və Cəlal Allahverdiyevin Nəcəf bəy Vəzirov, Eynəli Sultanov və Cəlil Məmmədquluzadənin XX əsrin əvvəllərində İrəvanda işlədikləri faktını diqqətə çatdırmaları maraq doğurur. Belə ki, onlar öz ədəbi fəaliyyətlərini burada da davam etdirmişlər. Məhz həmin dövrdə bu əlaqələr İrəvan ədəbi-mədəni mühitinin inkişafında ciddi rol oynamışdır.

Kitabda 1920-ci illərdə İrəvanda azərbaycanlı pedaqoji kadrların hazırlanmasına dair göstərilən təşəbbüslər, bu istiqamətdə atılan ilk addımlardan da geniş bəhs edilmişvə əsərin bu bölməsi "İrəvanda azərbaycanlı pedaqoji kadrların hazırlanmasında ilk addımlar (1922-1924)" kimi müəyyənləşdirilmişdir. Müəlliflər bu bölmədə, ilk növbədə, İrəvan şəhərinin 1918-1920-ci illər tarixinə nəzər salır, həmin illərdə İrəvan şəhəri tarixinin ən gərgin və mürəkkəb dövrlərindən birini yaşadığını, erməni daşnaklarının türk-müsəlmanlara, azərbaycanlılara qarşı törətdikləri soyqırımları diqqətə çatdırır, azərbaycanlılar yaşayan məhəllələrin vəhşicəsinə yandırılaraq, dağıdılaraq məhv edildiyini və təkcə İrəvan şəhərində 14.000 nəfərdən çox azərbaycanlının qətlə yetirildiyini əsaslı fakt olaraq qeyd edirlər. Bu da bir tarixi faktdır ki, təkcə İrəvan şəhərində deyil, azərbaycanlılar yaşayan bütün bölgələrdə də (Üçmüədzin, Zəngibasar, Ağbaba, Vedibasar, Qəmərli, Basarkeçər, Zəngəzur, Dərələyəz, Allahverdi və s.) erməni vəhşilikləri törədilmiş, xalqımız erməni vandalizminin qurbanı olmuşdur. Belə bir ağır vəziyyətdə də İrəvan ziyalıları milli maarifçilik uğrunda mübarizə aparmış, xalqımızın milli mənəvi dəyərlərinin qorunması üçün məktəb işinə, təhsilə böyük önəm vermiş, böyüyən nəsilləri milli ruhda tərbiyə etməyə çalışmışlar.

Məlumdur ki, 1920-ci ildə Qərbi Azərbaycanda Ermənistan Sovet Respublikası yaradıldı. Əvvəlki daşnak rejimi bolşevik rejimi ilə əvəz edildi. Lakin yenə də burada hakimiyyətin ermənilərin əlində olması azərbaycanlıların işinə, onların ictimai-siyasi, mədəni həyatda iştirakına maneələr yaradırdı. Azərbaycanlılar indi öz tarixi yurdlarında - Qərbi Azərbaycanda "Azlıqda qalan millətlər" kateqoriyasına daxil edilmişdi. Bütün bunlara baxmayaraq qabaqcıl ziyalıların, xüsusilə "Azlıqda qalan millətlər bürosu"nun müdiri Mehdi Kazımovun səyi nəticəsində 1922-ci ilin sonlarında İrəvanda xüsusi hazırlıq kursları təşkil edilmiş və müəllimlik kurslarından keçmiş şəxslərə müəllimlik statusu verilir, onlar məktəblərə dərs deməyə göndərilirdilər. Lakin bu da mövcud tələbatı ödəmirdi. Kitabda bu məsələlər real faktlarla əsaslandırılmışdır.

Əsərin digər bir bölməsi "İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin yaranması, fəaliyyəti və formalaşması"na (1924-1948) həsr edilmişdir. Burada müəlliflər erməni şovinist dairələrinin azərbaycanlıların müstəqil pedaqoji məktəb yaratmalarına maneçilik cəhdləri barədə məlumat verir, belə bir məktəbin Erməni Pedaqoji Texnikumunun nəzdində bir şöbə kimi fəaliyyət göstərməsini daha məqsədəuyğun hesab edirdilər. Yalnız "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyevin, "Azlıqda qalan millətlər şurası"nın müdiri Mehdi Kazımovun, "Zəngi" qəzetinin məsul redaktoru Mustafa Hüseynovun, İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrindən olan Əkbər Rizayevin, Qulam Fərhadovun, Rza Şeyxzadənin, Miryusif Mirbabayevin, Murtuza Muradovun, Əhməd Əhmədovun, Abbas Fərəcovun və digər azərbaycanlı ziyalıların əzmkarlığı, apardıqları mübarizə nəticəsində Ermənistan Xalq Maarif Komissarlar Şurası İrəvan Türk Pedaqoji Texnikumunun təşkil edilməsi barədə qərar qəbul etməyə məcbur olmuşdu. Nəhayət, 1924-cü ilin oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açılmış və bu təhsil ocağının fəaliyyəti milli təhsil tariximizin ən şərəfli, qiymətli səhifələrindən biri kimi yadda qalmışdır.

Kitabda İrəvan Türk Pedaqoji Texnikumunun açılması ilə Azərbaycan məktəblərində müəllim kadrlarına olan ehtiyacın qismən ödənildiyi və bu işdə texnikumun direktoru Mehdi Kazımovun böyük rol oynadığı qeyd edilir.

Bu texnikumun 1925-ci ildə Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu adlandırılması İrəvan ziyalıları içərisində sabaha, gələcəyə müəyyən ümidlər yaratsa da, erməni şovinistlərinin azərbaycanlılara qarşı münasibəti, pozuculuq hərəkətləri onları daim ayıq-sayıq olmağa, milli dilimizin, mədəniyyətimizin inkişafı naminə daha çox fədakarlıqlar göstərməyə sövq edirdi.

İrəvan Türk Pedaqoji Texnikumu Erməni Pedaqoji Texnikumunun binasında fəaliyyət göstərir, dərs demək üçün müəllim kadrları çatışmır, dərslik, proqram yox idi. İrəvan Türk Pedaqoji Texnikumunda 30 nəfər tələbə üçün kiçik bir sinif və iki yataq otağı nəzərdə tutulmuşdu. Tədqiqatlardan aydın olur ki, sinifdə parta və oturacaqlar olmadığından tələbələr yerdə oturmağa məcbur olurmuşlar.

Bu texnikumda vəziyyətin ağırlığı əslində Ermənistan Xalq Maarif Komissarlığının bu təhsil ocağına biganə münasibətilə bilavasitə bağlı idi. Kitabda göstərilir ki, bu təhsil ocağının ehtiyacları uzun müddət Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən ödənilmişdir.

Müəlliflərin araşdırmalarından aydın olur ki, azərbaycanlı məktəblərində müəllim kadrlara böyük tələbat olduğu halda, yüzlərlə azərbaycanlı müəllim və tələbələrə "bəy", "xan", "mülkədar", "qolcomaq", "kulak", "mövhumatçı", "millətçi" damğası vurulur və həmin şəxslər təhsil müəssisələrindən xaric edilirdilər. Kitabda verilən materiallardan məlum olur ki, o illərdə "Təmizləmə komissiyası" adlandırılan yoxlama zamanı texnikumun bir çox qabaqcıl tələbələri: Mikayıl Əliyev, Fəraməz Kazımbəyov, Xəlil Əfəndiyev, Ələkbər Həsənzadə, Fərhad Əsgərov, Tərifə İsmixanova, Əli Xəlilov, Məhəmməd Rzayev, Məhərrəm Xəlilov, Əkbər Cabbar Hacı Həsənoğlu, Qədimalı Vəliyev, Ənvər Qazıyev, Ağayar Həsənov, Məmmədəli Əsədov, Oruc Şumalov, Fərman Kazımov, Ziyad Şərifov, Bəhmən Xudiyev, Məhəmməd Rzayev, Şahzadə Rizabəyov və başqaları "kulak", "ünsür" adı ilə damğalanmış və bu texnikumdan xaric edilərək cəzalandırılmışdılar.

Tədqiqatçılar Könül Həsənova və Cəlal Allahverdiyev bu faktları göstərməklə erməni şovinistlərinin azərbaycanlılara qarşı qabaqcadan planlaşdırılmış hərəkətlərinin mahiyyətini diqqətə çatdırır, erməni vandalizmini, vəhşiliyini ifşa etmiş olurlar.

Maraqlıdır ki, ilk dəfə bir neçə müəllimlə fəaliyyətə başlayan İrəvan Türk Pedaqoji Texnikumu sonralar bu adla fəaliyyət göstərmişdir. Bu təhsil müəssisəsinin adındakı "Türk" sözü də erməniləri narahat edirdi. Ona görə bu sözün texnikumun adından çıxarılmasına çox cəhd göstərirdilər. Nəhayət, 1935-ci ildə İrəvan Türk Pedaqoji Texnikumu İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi adlandırıldı. Kitabda bu tarixi fakt da əksini tapmışdır.

Kitabda 1934-cü ildən etibarən bu təhsil ocağına cəlb olunmuş ali təhsilli müəllimlərdən Nəsib Əfəndiyev, Müzəffər Nəsirli, Abbas Azəri (Azərbaycan dili və ədəbiyyat fənləri üzrə), Nəzər Paşayev (tarix fənni üzrə), Tacirə Bağırova, Zəhra Abbasova (pedaqogika və psixologiya fənləri üzrə), Ramazan Əliyev (kimya fənni üzrə), Mamed Həsənov, Zərri Qurbanova, Əziz Əzizov və Kərəm Abbasovun (fizika və riyaziyyat fənləri üzrə) adları çəkilir, peşəkarlıq qabiliyyətləri, yüksək mənəvi keyfiyyətləri əsaslandırılır.

Kitabda 1935-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin nəzdində yaradılmış qiyabi şöbə haqqında, eyni zamanda bu təhsil ocağına rəhbərlik etmiş direktorlar, burada dərs demiş müəllimlər, məktəbin görkəmli məzunları barədə də məlumat verilir. Mehdi Kazımov, Bəhlul Yusifov, Həbib Məhəmmədzadə, Xəlil Səfərov və Əsgər Cəfərovun təhsil müəssisəsinin direktorları, Yusif Məmmədəliyev, Bala Əfəndiyev, Lətif Hüseynzadə və başqalarının müəllim kimi fəaliyyətləri geniş təhlil edilir, onların Azərbaycan təhsil tarixində xidmətləri şərh edilir. Tədqiqatçılar eyni zamanda İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin görkəmli məzunlarını da unutmamış, bu təhsil müəssisəsini bitirmiş və sonralar Azərbaycanın görkəmli alimləri kimi tanınmış Budaq Budaqov, Zərifə Budaqova, Yusif Yusifov, Nəzər Paşayev, Süleyman Məmmədov və başqalarının fəaliyyətləri barədə ətraflı məlumatlar verirlər.

Maraq doğuran cəhətlərdən biri budur ki, Qərbi Azərbaycan tarixi ilə bağlı sənədlərin ermənilər tərəfindən məhv edilməsinə, İrəvan arxivindən heç bir məlumat əldə edilməsinin mümkünsüzlüyünə baxmayaraq kitabda əksini tapmış materiallar dövrün mənzərəsini öyrənməyə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin fəaliyyət ilə bağlı zəruri məsələləri üzə çıxarmağa imkan yaradır. Bu, əslində tədqiqatçı Könül Həsənova və Cəlal Allahverdiyevin gərgin zəhmətinin, fədakar əməyinin nəticəsi kimi dəyərləndirilməlidir. Kitabda əksini tapmış materiallar, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin fəaliyyətinin ardıcıl, sistemli olaraq verilməsi, məktəbin məzunları barədə portret oçerklərin təqdimi kütləvi informasiya vasitələrindən əldə edilmiş məlumatlar əsasında formalaşdırılmışdır.

Kitabda İrəvan Azərbaycanlı Pedaqoji Məktəbini bitirmiş 240 məzunun və İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun Xanlar Pedaqoji Məktəbinə köçürülən 180 tələbənin siyahısı verilmiş və siyahının hələ tam olmadığı qeyd edilmişdir.

Ümumiyyətlə, tədqiqatçı alimlər, filologiya üzrə fəlsəfə doktorları, dosentlər Könül Həsənova və Cəlal Allahverdiyevin "Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi" adlı əsəri bir tədqiqat işi kimi çox dəyərlidir. Əsərin elmi nəticələrindən digər tədqiqatçılar əsaslı mənbə kimi istifadə edə bilərlər. Bu, həm də tədris vəsaiti kimi əhəmiyyətli hesab edilir. Belə ki, bu vəsait Qərbi Azərbaycan tarixini öyrənmək, bölgənin azərbaycanlılara məxsus təhsil tarixini mənimsəmək üçün faydalıdır.

**İntiqam CƏBRAYILOV,
Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri
pedaqogika elmləri doktoru, professor**

# ZƏFƏRİN UNİVERSİTETİ

2024 KARABAKH UNIVERSITY

# Qarabağ Universitetinin yaradılmasının bir illiyi münasibətilə konsert keçirilib





Noyabrın 30-da Qarabağ Universitetində İncəsənət fakültəsi tərəfindən konsert və sərgi təşkil edilib.

Universitetin yaradılmasının bir illiyi münasibətilə keçirilən tədbir Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin yad edilməsi ilə başlayıb.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, nazirliyin rəsmiləri və digər qonaqlar iştirak ediblər.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov açılış nitqi ilə çıxış edərək qonaqları salamlayıb. Bir il ərzində əldə edilən nailiyyətlərdən danışan rektor universitetin ölkənin təhsil sistemində önəmli rolunu vurğulayıb.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında Qarabağ Universitetinin qısa müddətdə böyük inkişaf yolu keçdiyini, təhsil, elm və innovasiya sahələrindəki fəaliyyətinin ölkə üçün əhəmiyyətli olduğunu bildirib.

Universitetin fəaliyyətinin regionda təhsil və elm sahəsindəki islahatların bir hissəsi olduğunu diqqətə çatdıran nazir qeyd edib ki, burada tədris prosesi beynəlxalq səviyyədə tanınan standartlara uyğun təşkil edilir, həmçinin tələbələrə müasir və keyfiyyətli təhsil imkanları təqdim olunur.

Konsertdə “Cadenza” orkestrinin, İncəsənət fakültəsində müəllim kimi fəaliyyət göstərən tanınmış incəsənət xadimləri və tələbələrin ifasında musiqi nümunələri səsləndirilib.

Konsert proqramından sonra həmin fakültənin “Dekorativ - tətbiqi sənəti” və “Dizayn” ixtisasları üzrə tədris aparan müəllimlərinin əsərlərindən ibarət sərgi nümayiş etdirilib.








## Emin Əmrullayev

**“Qarabağ Universitetində yeni korpuslar açılacaq. Yaxın günlərdə tədris - tibbi tədqiqat mərkəzinin binasının təmiri istiqamətində işlərə başlanılacaq. Artıq iki yeni korpusun tikintisində ilkin işlər görülüb. Bu yaxınlarda da İqtisadiyyat - biznes məktəbi və Sosial elmlər fakültəsinin binaları hazır olacaq.**

**Qarabağ Universitetində Türk Dövlətləri Təşkilatına (TDT) və İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrdən tələbələr də təhsil alacaqlar. Növbəti ildən Prezident İlham Əliyevin tapşırığı ilə türkdilli dövlətlərdən və İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olan dövlətlərdən tələbələrin Qarabağ Universitetində təhsil alması planlaşdırılır. Həmçinin Azərbaycanla dostluq münasibətləri saxlayan ölkələrin də tələbələri növbəti ildən universitetə qəbul ediləcək.**

**Universitetə növbəti tədris ilində təxminən 1500-ə qədər tələbə qəbulu planlaşdırılır. Əsasən mövcud fakültələr üzərindən yeni ixtisaslar da yaradılacaq. Yəni mövcud fakültələrdə müəllimlik ixtisaslarında yeni sahələr - kimya, biologiya, fizika, coğrafiya müəllimliyi və digər müəllimlik ixtisaslarını çalışacağıq ki, tam əhatə edək. Mühəndislik ixtisaslarının da sayı artacaq.**

**Tibb fakültəsinin də açılmasını planlaşdırırıq. Tibb fakültəsində ali təhsil səviyyəsində həm “Tibb”, həm də “Tibb bacısı” ixtisaslarının açılması planlaşdırılır. Bundan əlavə, Təbiət fənləri üzrə fakültənin də açılmasını düşünürük”.**

# Elm və təhsil naziri Misirin, Yəmənin və Somalinin ölkəmizdəki səfirləri ilə görüşüb









Dekabrın 3-də elm və təhsil naziri Emin Əmrullayev Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmid ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və ali təhsil sahəsində cari əməkdaşlıq, həmçinin gələcək inkişaf perspektivləri müzakirə edilib.

***

Dekabrın 4-də elm və təhsil naziri Emin Əmrullayev Yəmən Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Saleh Əhməd Turiq ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın gələcək inkişaf perspektivləri müzakirə edilib.

***

Dekabrın 4-də elm və təhsil naziri Emin Əmrullayev Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fathudin Ali Mohamed ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın gələcək inkişaf perspektivləri müzakirə edilib.

## Elm və təhsil naziri Tərtərdə vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 20 dekabr tarixində Tərtər şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Tərtər, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Şuşa, Xocalı və Xocavənd sakinləri iştirak edə bilərlər.

Adları çəkilən şəhər və rayonların sakinləri 12 dekabr (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.




# "Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış"

## II beynəlxalq konfrans keçirilib

Dekabrın 4-də "Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış" adlı II beynəlxalq konfrans keçirilib.

Konfrans Elm və Təhsil Nazirliyi və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) təşkilatçılığı, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi və Təhsil İnstitutunun tərəfdaşlığı ilə baş tutub.

Konfransda elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, millət vəkilləri, nazirliyin struktur bölmə rəhbərləri, ali təhsil müəssisələrinin rektorları, regional təhsil idarələrinin əməkdaşları, məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri, eləcə də Böyük Britaniya və Finlandiyadan olan məruzəçilər və yerli mütəxəssislər iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov qonaqları salamlayaraq 1-5 yaşlı uşaqların layiqli vətəndaş kimi formalaşmasında keyfiyyətli məktəbəqədər təhsilin önəmindən danışıb. Tural Əhmədov 2023-2024-cü illərdə 150 məktəbəqədər təhsil müəssisəsində keyfiyyət monitorinqlərinin keçirildiyini bildirib və daxili keyfiyyətin təmin olunması məqsədilə müəssisə rəhbərləri ilə təşkil edilmiş mentorluq proqramı barədə ətraflı məlumat verib.

Daha sonra elm və təhsil naziri Emin Əmrullayev çıxışında dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda təsbit olunmuş məktəbəqədər təhsilin nəticəyönümlü və ölçüləbilən hədəfləri barədə danışıb. Bu sahədə əhatəliliyin təmin olunması məqsədilə son illər həyata keçirilən işlərdən söz açan Emin Əmrullayev məktəbəhazırlıq qruplarının da əhəmiyyətini vurğulayıb və 1 illik proqramda iştirakın məktəbə daha hazırlıqlı başlamağa müsbət təsir etdiyini qeyd edib. Həmçinin nazir erkən təhsil pilləsinin insan həyatına əsaslı təsiri və məktəbəqədər təhsilin inkişaf dairəsinin genişləndirilməsi istiqamətində yeni modellər və gələcək planlara dair məlumat verib.

Elm və təhsil naziri çıxışının sonunda məktəbəqədər təhsil müəssisələrində keyfiyyət təminatını artırmaq üçün sertifikatlaşdırma prosesinin tətbiq ediləcəyini istisna etməyib.

Digər çıxışlardan sonra konfrans "Məktəbəqədər təhsildə yaşıl nümunələr və oyun əsaslı öyrənmə" və "Məktəbəqədər təhsildə davamlı keyfiyyət və onun idarə olunması" panelləri ilə davam etdirilib.

Panellərdə "Kindred" Erkən İnkişaf Fondunun direktoru, "Ofsted" - Təhsil, uşaqlara xidmət və bacarıqlar üzrə standartlar ofisinin İdarə Heyətinin üzvü, Böyük Britaniyanın Təhsil departamentinin məsləhətçisi Felesiti Gilespi, "Təbiətdə öyrənirəm"in rəhbəri, təbiət pedaqogikası üzrə təlimçi Qaye Amus, Vaşinqton Universitetinin assistent professoru Aytəkin Hüseynli, Cənubi Florida Universitetinin təhsilin idarə olunması üzrə doktorantı Lalə Orucova, Bakı şəhəri 23 nömrəli körpələr evi — uşaq bağçasının tərbiyəçi — müəllimi Nərmin Məhərrəmova təqdimatla çıxış ediblər.

Qeyd edək ki, "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr edilən konfransın keçirilməsində məqsəd beynəlxalq təcrübənin müqayisəli şəkildə öyrənilməsi və yerli xüsusiyyətlərin nəzərə alınaraq tətbiqi ilə məktəbəqədər təhsildə keyfiyyətin yüksəldilməsinə nail olmaq və yerli qabaqcıl təcrübənin geniş auditoriyaya çatdırılmasına xidmət etməkdir.





**Emin Əmrullayev**

"2026-cı ilin sentyabr-oktyabr aylarına qədər ölkə üzrə məktəbəqədər təhsildə əlavə 100 min yer açılacaq. 4-5 yaş və ya 3-4 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlbinin əhatə dairəsini artırmaq əsas məqsədlərdən biridir.

Hazırda Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi ən böyük islahatlardan biri 5 yaşlı uşaqların məktəbəhazırlıq siniflərinə cəlb edilməsi layihəsinin tətbiqidir. 30%-lik göstəricini 80-90%-ə yaxınlaşdırmağa nail olmuşuq. Bu rəqəmlər müxtəlif illərdə dəyişsə də, orta hesabla hər il uşaqların 80-90%-i ən azı, bir il məktəbəqədər təhsilə cəlb olunur".

Çətin əlçatan ərazilərdə, heç vaxt məktəbəqədər təhsil müəssisəsi olmayan yerlərdə məktəbəqədər təhsilin təşkilini təmin edən bir model yaradılıb. Bu model ənənəvi modellərlə müqayisədə 10 dəfə daha ucuz başa gəlir. İndiyə qədər 20 minə yaxın Azərbaycan vətəndaşının bu modeldən faydalanması və hər il təxminən 20 min uşağın bu model vasitəsilə təhsilə cəlb olunması sevindirici haldır.

Hədəfimiz 2026-cı ilə qədər hər iki uşaqdan birinin (yəni 1-5 yaş arası uşaqların 50%-nin) məktəbəqədər təhsillə əhatə olunmasıdır. Bu, olduqca ambisiyalı və tarixi bir hədəfdir, çünki indiyə qədər bu göstəriciyə yaxınlaşa bilməmişik. Məktəbəqədər təhsilin əlçatanlığı və keyfiyyətinin artırılması sahəsində aparılan işlər daha da prioritetləşdirilməlidir".



# Nazir Milli Qəhrəman Natiq Qasımov adına Mingəçevir şəhəri 4 nömrəli tam orta məktəbdə olub





Dekabrın 6-da elm və təhsil naziri Emin Əmrullayev Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımov adına Mingəçevir şəhəri 4 nömrəli tam orta məktəbdə olub.

Əvvəlcə Natiq Qasımovun məktəbin foyesindəki xatirə lövhəsinə baxış keçirilib, qəhrəmanımızın əziz xatirəsi ehtiramla yad edilib.

Sonra təhsil ocağının ümumi fəaliyyəti və əldə etdiyi uğurlar barədə məlumat verilib. Bildirilib ki, Natiq Qasımovun təhsil aldığı bu məktəbdə hazırda 1345 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 80 müəllim məşğul olur.

Emin Əmrullayev təhsil müəssisəsində yaradılmış şəraitlə tanış olub və tədris prosesini izləyib, həmçinin məktəbin pedaqoji heyəti ilə görüşüb.

Daha sonra “Mingəçevir şəhəri 4 nömrəli tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun adının verilməsi barədə” qərara uyğun olaraq, yaxın zamanda müvafiq işlərin görülməsi məsələləri müzakirə edilib.

Qeyd edək ki, noyabrın 29-da Nazirlər Kabinetinin müvafiq qərarı ilə Mingəçevir şəhəri 4 nömrəli tam orta məktəbə Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun adı verilib.






# “Prezidentin sərəncamı anamı çox kövrəltdi”

## “Ailəmin tək təsəllisi Natiqin adının əbədiləşdirilməsidir”

**Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş qəhrəmanlarımızın xatirəsi daim uca tutulur. Prezident İlham Əliyev Azərbaycanın Milli Qəhrəmanı Natiq Səlim oğlu Qasımovun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, Baş nazir Əli Əsədov qəhrəman şəhidimizin adının onun təhsil aldığı Mingəçevir şəhər 4 nömrəli tam orta ümumtəhsil məktəbinə verilməsi barədə qərar verib.**

### “Dərslikdə “Bayraqdar Natiq” başlıqlı yazı gördükdə çox sevindik”

Məktəbin kollektivi Milli Qəhrəman Natiq Qasımovun adının ədəbiləşdirilməsindən olduqca məmnundur. Təhsil müəssisəsinin direktoru Zaur Müseyibov “Azərbaycan müəllimi” ilə söhbəti zamanı Milli Qəhrəmanın büstünün hazırlanması və məktəbə adının verilməsi ilə bağlı artıq müvafiq hazırlıqlara başlanıldığını deyir.

Zaur müəllimin sözlərinə görə, tədris zamanı şagirdlərinə Natiq Qasımovun həyat və qəhrəmanlıq yolundan qürurla danışırlar. Elm və Təhsil Nazirliyinin 5-ci sinif “Azərbaycan tarixi” dərsliyində də “Qanı ilə tarix yazan qəhrəmanlar” başlıqlı mövzuda şəhidin qəhrəmanlıq salnaməsindən bəhs edilir: “2024-cü ildən 9-cu sinif “Azərbaycan tarixi” kitabında da şəhid haqqında “Bayraqdar Natiq” başlıqlı faktlara əsaslanan yazını gördükdə çox sevindik. Burada şəhidimizin bayrağımızı canı bahasına qoruduğunu təsdiq edən faktların yer alması və şagirdlərin bu məlumatları dərsliklər vasitəsilə öyrənməsi çox vacibdir. Belə igidlərimizlə bağlı faktları tarix kitablarına daxil etmək, onları yaşatmaq, gələcək nəsillərə ötürmək bizim milli-mənəvi borcumuzdur.

Şagirdlərin milli-mənəvi ruhda təhsil almaları üçün hazırlanan kitablarda qəhrəmanlarımızın adına tez-tez rast gəlirik. Bu, bizi qürurlandırır”.

### “Prezidentin sərəncamı anamı çox kövrəltdi”

Bu qürurlu xəbəri aldıqdan sonra “Azərbaycan müəllimi” olaraq biz də Şəhidlər xiyabanında məzarı olmayan Milli Qəhrəmanımızın barelyefini ziyarət etdik.

Barelyefinin qarşısında görüşdüyümüz Nofəl Qasımov illərdir ki, qardaşının axtarışını davam etdirir. O, bizimlə söhbətdə dedi: “Prezidentin sərəncamı ilə qardaşımın adının əbədiləşdirilməsi ailəmizi, xüsusilə anamı, bütün Natiqsevərləri kövrəltdi”.

### “Arzusunu yerinə yetirdim”

Natiq Qasımov 1971-ci il yanvarın 2-də Gədəbəy rayonunun Kiçik Qaramuradlı kəndində anadan olub. Qardaşının dediyinə görə, ailədə 4 uşaq olub. Evin ən kiçiyi olan Natiq həm də ailənin ən istəklisi kimi çox sevilib: “Mən Natiqdən 10 yaş böyük idim. Natiq Mingəçevir şəhəri 4 nömrəli tam orta məktəbdə təhsil alanda mən Rusiyada yaşayırdım. O vaxtlar Qarabağla bağlı çox narahatedici xəbərlər gəlirdi. Mən həmin vaxt onunla tez-tez əlaqə saxlayırdım. Övladım dünyaya gələndə Natiq ona Namiq adını qoymağımı istədi. Müharibə başlayan kimi isə Natiq cəbhəyə yollandı. Onda hiss etdim ki, Natiq niyə oğluma Namiq adını qoymağımı istədi, amma ona heç nə deyə bilmədim, arzusunu yerinə yetirdim”.




### Bir şəkil ilə tarixə düşdü

Natiq Qasımov Ermənistan silahlı birləşmələrinin Azərbaycanın suveren ərazilərinə hücumu ilə bağlı 1991-ci ildə Ağdam rayonunda könüllü olaraq təşkil edilmiş “Qaradağ şahinləri” taboruna yazılaraq Vətənin müdafiəsində iştirak edib.

O, 1992-ci ilin martında Xocalı rayonunun Pirlər kəndi istiqamətində gedən döyüşdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb.

Altı döyüş yoldaşı həlak olduqdan sonra beş gün Alban kilsəsində ac-susuz, təkbaşına döyüşüb. Gülləsi qurtardığından altıncı gün - 1992-ci il martın 12-də rusiyalı və italiyalı jurnalistlərin - Konstantin Smirnov və Enriko Sarzinin şahidliyi ilə Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb. Natiqin əsir götürülməsi faktı Rusiyada nəşr edilən “Oqonyok” jurnalının 1992-ci il 14 və 15-ci nömrələrində “Strax” adlı məqalədə təsvir edilib.

Məhz bu jurnalda verilən şəkil Milli Qəhrəmanımızın şücaətinin nümunəsi idi. Əsir düşərkən belə bayrağı qoruması Natiq Qasımovu dünyaya tanıtdı.



### “Öldüyü deyilsə də, Natiqin axtarışlarını dayandırmadım”

“Natiq əsir düşdüyü gündən onu axtarmağa başladım, bunun üçün çox çalışdım. O vaxt Milli Qəhrəman Allahverdi Bağırovla görüşdüm. O, Natiqin diri-diri yandırıldığı xəbərini alsa da, mən axtarışları dayandırmadım. Allahverdi Bağırov sonra mənimlə yenidən əlaqə saxladı. 60 şəhidin nəşinin ermənilərdən təhvil alındığını dedi, gəlib baxmağımı istədi. Lakin mən o qədər cəsədin içində bir nəfərin vurularaq öldürüldüyünü gördüm. Bəlkə də həyatımda o qədər dəhşətli, ağrılı bir səhnə yaşamamışdım. Atamla birlikdə öldürülənlərin arasında Natiqi axtarmağa başladıq. Amma cəsədlərə qarşı o qədər vəhşiliklər edilmişdi ki, mən dəhşətə gəlirdim: bəzilərinin dəriləri soyulmuş, diri-diri yandırılmışdı, tanınmaz halda idilər. Natiqin sinəsində “ANA” yazısı vardı. Mən ona görə bir neçə hərbi paltarda olan, amma tanınmaz halda olan şəhidlərin sinəsinə baxmaq istədim. Onların hamısının sinəsi qaralmış kömür kimi idi. Adamın qanı donurdu bu vəhşiliyə. İnsan insana bunu edərdimi?.

Biz 30 il sonra bu günahsız qanların qisasını aldıq. Amma mərd-mərdanə aldıq, kişi kimi döyüşdük. Heç bir mülki vətəndaşa zərər vermədik, şərəflə döyüşdük”.

Müsahibimiz deyir ki, 2020-ci ildə 44 günlük müharibə olan zaman Natiqin nəşini axtardığı günləri çox xatırlayıb: “O günləri onsuz da unutmuram. Onda bir şeyi anladım ki, insanın düşməni də kişi olmalıdır. Düşmənin nakişi olarsa, ondan hər cür vəhşilik gözləyə bilərsən. Natiqi axtardığım dövrdə Qızıl Xaç Cəmiyyətinə getdim. Mənə onun öldüyü deyilsə də, bu günə qədər nə Natiqin yoxluğu ilə barışdım, nə də axtarışlarımı dayandırdım”.

### “Oğlum dedi ki, onun üçün əmisinin həyatını canlandırmaq çox ağırdır”

Nofəl Qasımov bildirir ki, sonralar qardaşı haqqında filmin çəkilməsi üçün müvafiq qurumlara müraciət edib. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2016-cı ildə çəkilmiş “Oğul” filmində Natiq Qasımovu oğlu Namiq Qasımov canlandırıb: “Sonra başqa bir film də çəkildi. Bu filmin çəkilişlərini xarici kinooperatorlar həyata keçirdi, çəkilişlər 3 il davam etdi. Çəkilişlər üçün İngiltərədən də nümayəndələr gəldi. Bu film Almaniyada, Hindistanda, Çexiyada keçirilən festivallarda nümayiş olunub. Prodüseri hindistanlı, rejissoru almaniyalı idi. Onlar dövlət tərəfindən dəvət edilmişdi. Həmin şəxslər bu filmdə də Natiq rolunu oğlum Namiqin canlandırmasını istədilər. Oğlum əvvəlki filmdə çəkilsə də, bu filmdə çəkilməkdən imtina etdi. Əmisinin yaşadığı həyatı canlandırmaq onun üçün çox ağrılı idi. Bizə dedi ki, onun üçün əmisinin həyatını canlandırmaq çox ağırdır”.

### Qəhrəmanın xatirəsinin yaşadılması

Natiq Qasımov hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında I Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyatdadır.

“Mən bu gün də axtarışlarımı davam etdirirəm: 32 ildir boş məzarın başında qardaşımı gözləyirəm. Mən bu məzara gül gətirib qoymamışam. Natiq burada deyil. Natiqi o qədər axtardım ki… 2024-cü il iyunun 25-də mənə zəng gəldi ki, Prezident bu gün imzaladığı sərəncamla Natiq Qasımova “Azərbaycanın Milli Qəhrəmanı” adını verdi. Sərəncamın ad günümə təsadüf etməsi, Prezidentin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı məni bir daha qürurlandırdı.

Bu gün tək istəyim var. Artıq bilirəm ki, Natiq sağ deyil. Arzum qardaşımın nəşinin tapılaraq Mingəçevirə gətirilməsidir. Natiqin nəşi tapıldıqda axtarışlarımı dayandıracağam. Son nəfəsimə qədər Natiqi axtaracağam”, - deyən qardaşın nitqi tutulur, gözü dolur.

Vətən uğrunda canını fəda edən qəhrəmanlarımızın xatirəsini yaşatmaq, onların keçdiyi şərəfli döyüş yolunu gələcək nəsillərə çatdırmaq hər birimizin müqəddəs borcudur. Onların xatirəsi qəlbimizdə daim yaşayacaq. Çünki şəhidlər ölməz, Vətən bölünməz!

**Aynur ARAZ,**
**Mərkəzi Aran və Şəki-Zaqatala üzrə regional təmsilçi**

# Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunan konsert





**Dekabrın 5-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunan konsert keçirilib.**

Konsert Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə baş tutub.

Tədbirin keçirilməsində məqsəd Naxçıvanın zəngin tarixi, mədəni irsi və tarixi abidələri, etimologiyası barədə uşaq və gəncləri maarifləndirmək, Azərbaycanın zəngin tarixi keçmişində, ictimai-siyasi və elmi-mədəni həyatında Naxçıvanın oynadığı rolu, görkəmli siyasi və dövlət xadimlərinin xidmətlərini vurğulamaqdan ibarət olub.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, 200 nəfərdən çox məktəbli, valideynlər, pedaqoji heyət və digər qonaqlar iştirak ediblər. Tədbirdə uşaq və gənclərin ifasında Naxçıvan Muxtar Respublikasına həsr olunan ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib, mahnılar səsləndirilib.

# Azərbaycan Tələbə Liqasının 2024/2025 mövsümünə start verilib




**Noyabrın 29-da ali təhsil müəssisələrinin tələbələri arasında futzal idman növü üzrə Azərbaycan Tələbə Liqasının 2024/2025 mövsümünün açılışı olub.**








Tədbirdə Elm və Təhsil Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin rəsmi şəxsləri, millət vəkilləri, rektorlar, veteran futbolçular iştirak ediblər.

Açılış mərasimində elm və təhsil nazirinin müavini, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin prezidenti Firudin Qurbanov çıxış edərək liqanın ali təhsil müəssisələrinin tələbələri arasında futzalın təbliği, perspektivli idmançıların aşkarlanmasında xüsusi rol oynadığını vurğulayıb. Həmçinin bildirib ki, 2024-cü ilin iyul ayında Azərbaycan Tələbə Liqasının 2023/2024 mövsümünün qalibi olan Azərbaycan İdman Akademiyasının komandası 5-ci Avropa Universitet Oyunlarında iştirak edib, Macarıstan (16:1), Almaniya (5:1), Polşa (4:1), Fransa (6:1) və Çexiya (7:4) komandalarını məğlub edərək 5-ci yerə çıxıb.

Nazir müavini çıxışında idmanın inkişafına olan dövlət qayğısını xüsusi vurğulayıb, idmanın yetişməkdə olan gənc nəslin sağlamlığının təmin edilməsində əhəmiyyət daşıdığını qeyd edib.

Rəsmi açılışdan sonra liqanın A qrupunda mübarizə aparacaq Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Mühəndislik Universiteti komandalarının qarşılaşması baş tutub. Oyun Azərbaycan Dövlət İqtisad Universitetinin qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, Azərbaycan Tələbə Liqası Elm və Təhsil Nazirliyi, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilir.

12 ali təhsil müəssisəsinin komandasının mübarizə apardığı yarışa 2025-ci ilin may ayında yekun vurulacaq. Yarışlarda I, II, III yerləri tutan komandalar diplom, kubok, pul mükafatı ilə, liqada fərqlənən 3 tələbə-futbolçu “Ən yaxşı qapıçı”, “Ən yaxşı müdafiəçi”, “Ən yaxşı oyunçu” nominasiyaları üzrə xüsusi mükafatla təltif olunacaq.

Liqanın keçirilməsində məqsəd tələbələr arasında futzal idman növünün təbliği, perspektivli idmançıların aşkar edilməsi, bu idman növünə marağın artırılması və tələbələrdən ibarət yığma komandanın formalaşdırılmasıdır.

# SABAH tələbə-məzun forumu və karyera sərgisi keçirilib



**Dekabrın 3-də SABAH qruplarının 10 illik yubileyinə həsr olunan tələbə-məzun forumu və karyera sərgisinin açılış mərasimi keçirilib.**






Tədbir SABAH qruplarına dair videoçarxın nümayişi ilə başlayıb. Daha sonra Bakı Musiqi Akademiyasının SABAH tələbələrindən ibarət “Detaşe-SABAH” simli alətlər ansamblının ifasında musiqi nömrəsi səsləndirilib.

Açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev bildirib ki, qlobal meyillər təhsil sistemində yeni çağırışları formalaşdırdığından yeni məzmunlu, müəyyən ixtisaslar üzrə daha davamlı və əmək bazarının tələblərinə cavab verən təhsil proqramları ortaya qoyulmalıdır. Əmək bazarı ilə təhsil arasında daha interaktiv əlaqənin qurulmasının önəmini vurğulayan nazir müavini təhsil proqramlarının iş dünyasının tələblərinə uyğunlaşdırılmalı olduğunu qeyd edib.

Ardınca “SABAH-ın Məzunu” adlı video təqdim edilib.

Videotəqdimatdan sonra Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli SABAH məzunlarının məşğulluq göstəriciləri barədə tədbir iştirakçılarına məlumat verib.

Çıxışlardan sonra SABAH İncəsənət Festivalında tələbə və məzunların nümayiş etdirdikləri müxtəlif layihələr, əl işlərindən formalaşdırılmış “Virtual muzey”in təqdimatı olub.

Tədbir çərçivəsində SABAH tələbələri arasında 23-24 noyabr tarixlərində ekoloji maarifləndirmə mövzusunda təşkil edilən “Secure Tomorrow” hakatonunun qalibləri də mükafatlandırılıb.

Forumun ilk günündə “SABAH layihəsinin ali təhsil sisteminə töhfəsi” mövzusunda panel sessiyası təşkil edilib. Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədlinin moderatorluğu ilə aparılan panel sessiyasında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, millət vəkili Şahin Seyidzadə və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxış ediblər.

Rəsmi hissə SABAH xorunun ifası ilə yekunlaşıb.

Ardınca “Tədqiqat necə kommersiyalaşdırıla bilər? Universitet-sənaye əməkdaşlığı” mövzusunda panel sessiyası da təşkil edilib. SABAH qrupları İcra Komitəsinin rəhbəri Elza Səmədovanın moderatorluğu ilə aparılan paneldə “CATALYSADE Technology Transfer and Innovation Inc” şirkətinin təsisçisi Sanem Yalçıntaş, Türkiyə-Azərbaycan Universitetinin rektor köməkçisi Mehmet Şimşer, Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkının baş direktoru Nihat Məcidov spiker qismində çıxış edərək mövzu ətrafında fikir mübadiləsi aparıblar.

İlk günün yekununda SABAH məzunlarının “Uzaqları yaxın edən SABAH!” mövzusunda panel sessiyası baş tutub.

Qeyd edək ki, forumun təşkilində məqsəd “SABAH qrupları” layihəsinin 10 illik fəaliyyəti üzrə uğurlarının nümayiş etdirilməsi, məzunların məşğulluq səviyyəsinin dəyərləndirilməsi, məzun assosiasiyasının təməlinin qoyulması, tələbə və məzunlar arasında şəbəkələşmənin qurulmasıdır.

İki gün davam edən forumda SABAH qrupları və Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə 50-dən çox şirkətin iştirak etdiyi karyera sərgisi də təşkil olunub.

# Aparat rəhbəri Şabran rayonunda səfərdə olub







## Mətin Kərimli səfər çərçivəsində vətəndaş qəbulu keçirib, bir sıra təhsil müəssisələrində olub, müəllimlərlə görüşüb

Dekabrın 5-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli Şabran rayonunda səfərdə olub.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Sonra Şabran şəhər icra nümayəndəliyinin inzibati binası ilə tanışlıq olub. Aparat rəhbərinə binanın fəaliyyəti ilə bağlı məlumat verilib.

Sonra Mətin Kərimli və Quba-Xaçmaz Regional Təhsil İdarəsinin müdiri Coşqun Əliyev Uşaq Gənclər İnkişaf Mərkəzinin binasına baş çəkib, buradakı şəraitlə tanış olublar.

Daha sonra Aparat rəhbəri Heydər Əliyev Mərkəzində vətəndaş qəbulu keçirib. Qəbulda vətəndaşların müraciətləri dinlənilib və onların həlli yolları müzakirə edilib.

Səfər çərçivəsində qonaqlar Şabran şəhərində yerləşən Samir Zülfüqarov adına 3 nömrəli tam orta ümumtəhsil məktəbinin sinif otaqlarına baş çəkiblər. Tədris prosesi ilə tanışlıq zamanı şagirdlərlə səmimi söhbətlər aparıb, onların təhsil nailiyyətləri və gələcək planları ilə maraqlanıblar. Həmçinin Quba-Xaçmaz Regional Təhsil İdarəsinin tabeliyində olan bir sıra ümumtəhsil müəssisələrində çalışan müəllimlərlə görüş keçirilib, təltif olunan təhsil işçilərinə döş nişanları və fəxri fərmanlar təqdim edilib.

# Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi ilə İctimai Şura arasında görüş keçirilib





**Dekabrın 5-də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin rəhbərliyi Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə görüş keçirib.**

"Azərbaycan müəllimi" xəbər verir ki, bu barədə agentlik məlumat yayıb.

Bildirilib ki, görüşdə Agentliyin direktoru Ülkər Səttarova qurumun fəaliyyəti, elm, ali və orta ixtisas təhsili sahəsində görülən işlər və perspektiv planlar barədə məlumat verib.

İctimai Şuranın sədri Hikmət Əlizadə və Şura üzvləri elm və ali təhsilin müxtəlif istiqamətlərinə dair təkliflər irəli sürüb, mövcud problemlərin müzakirəsi və həll yolları barədə fikir mübadiləsi aparıblar.

# PEŞƏ TƏHSİLİ

# Peşə təhsili müəssisələrinə əvvəlcə müəllim sonra tələbə kimi qəbul olundu

## Ali təhsilli peşə tələbəsi:

## "Mənim hədəfimdə qaynaqçı olmaq yox, qaynaqçı peşəkar etişdirməkdir"



**Peşə təhsili biri üçün ata məsləyi, başqası üçün qısa müddətdə qazanılan iş imkanıdır. Orxan Quluzadə üçün necə deyərlər, ikisi birindədir. O ali təhsilini tamamladıqdan sonra peşə təhsilinə üz tutan yüzlərlə gəncdən biridir. Təhsilini almaq istədiyi peşəyə gəlincə, bu peşə ilə atası, atasından əvvəl babası məşğul olub. Orxan da bu peşəyə üz tutub, ancaq bu qərarı verənə qədər müharibə belə görüb, o, Vətən müharibəsi iştirakçısıdır.**

### Qaynaqçı ailəsində yetişdi

1995-ci ildə Bərdə rayonunda anadan olan müsahibim tam orta təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə alıb. Həqiqi hərbi xidmət keçdikdən sonra ali təhsil almağa qərar verib. Deyir ali təhsil almaq fikri ailəsinin təsiri ilə formalaşıb: "Ailəm hər azərbaycanlı ailəsi kimi ali təhsilə önəm verib. Baxmayaraq ki, atam özü peşə təhsili almışdı, mənim ali təhsil almağımda israr etdi. Odur ki, ali təhsil müəssisələrinə qəbul imtahanlarına qatıldım. Seçdiyim 15 ixtisasdan 11-i müəllimlik idi. Amma mühəndislik ixtisasına qəbul olundum".

Azərbaycan Texnologiya Universitetinin "Kimya mühəndisliyi" ixtisası üzrə 2020-ci il məzunu Orxan Quluzadə əmək fəaliyyətinə hələ tələbəlik dövründən başlayıb. Mühəndisliyə aid olmasa da, müxtəlif işlərdə çalışıb. Azərbaycan Ermənistanın növbəti hərbi təcavüz cəhdinə cavab olaraq əks-hücum əməliyyatları başlayanda o da müharibəyə qatılıb. Hazırda həyatına müharibə veteranı olaraq davam edən Orxan Quluzadə deyir ki, universiteti bitirdikdən sonra özəl sektorda müxtəlif vəzifələrdə çalışsa da, heç bir işdə bənd ala bilməyib: "Oturaq iş, ofisdə iş mənə görə deyil. Ona görə tapdığım işlər ürəyimcə olmurdu".

### Mühəndisliyi oxudu, müəllim kimi özünü sınamaq istədi

O da uşaqlıqdan bəri olmaq istədiyi yerə - müəllimliyə üz tutub: "Bildiklərimi başqalarına öyrətmək istəyirdim. Xüsusən peşə sahəsində maraqlıyam. Gözümü açandan babamın, atamın qaynaqçı olduğunu, qaynaq etdiyini görürdüm. Atam ixtisaslı, peşəkar qaynaqçı idi".

Orxan Quluzadə peşə öyrətmək istəyi ilə peşə təhsili müəssisələrinə müəllimlərin işə qəbulu müsabiqəsinə qatılıb. Peşə təhsili müəssisələrində ixtisas fənn müəllimi olmaq arzusu ilə 2022-ci ildə keçirilən imtahanda 39 bal toplayaraq Şamaxı Peşə Liseyinə "Üzümçülük və şərabçılıq" üzrə ixtisas fənn müəllimi, 2023-cü ildə İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinə 26 balla "Baytar texniki" ixtisas fənn müəllimi olaraq qəbul olunub. Amma müxtəlif səbəblərdən müəllim kimi fəaliyyətə başlaya bilməyib. Bu il daha bir cəhd edib. Bərdə Dövlət Peşə Təhsil Mərkəzində ixtisas fənn müəllimi olmaq üçün müraciət etmək istəyib. Ancaq peşə təhsili müəssisəsində ixtisas fənn müəllimi olmaq üçün həmin ixtisas üzrə 1 istehsalat təlimi ustalığı üçün isə 5 il iş təcrübəsi tələb olunduğunu öyrənib. O da müəllimi ola bilmədiyi Bərdə Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi olmağa qərar verib.

### Axırda yenə qaynaqçı oldu

Bu il peşə təhsili almaq qərarına gəlib, atasının, babasının peşəsinə üz tutub. Nə də olmasa, qaynaqçı babasından, atasından peşənin əmək bazarındakı gücünü bilir. Əvvəlcə imtahanlara qatılıb. Peşə təhsili müəssisələrinə qəbulda iştirak edib və Bərdə Dövlət Peşə Təhsil Mərkəzində "Elektrik qaz qaynaqçısı" ixtisasına qəbul olunub: "Əmək bazarında bu peşəyə tələbat olduğunu bilirəm. Peşə təhsili də alaraq iş tapmaq imkanlarımın daha da genişlənəcəyini düşündüm".

Amma əsl niyyəti peşə təhsili sahəsində peşəkar təhsilverən olmaqdır. Bu məqsədlə xaricdə peşəkarlığını artırmağı hədəfləyib: "Elm və təhsil naziri Emin Əmrullayev çıxışlarının birində belə bir ifadə işlətdi ki, peşə təhsili müəssisələrinin məzunlarını daha çox işaxtaran deyil, işəgötürən tərəf kimi görür. Bu fikrin nə qədər real olduğunu peşə təhsili almağa başlayandan sonra anladım. Mənim hədəfim də sadəcə bir qaynaqçı olmaq yox, qaynaqçı peşəkarlar yetişdirməkdir. Kurs açıb bu peşəni arzulayan hər kəsə öyrətmək istəyirəm".

**Ruhiyyə DAŞSALAHLI**

## "AZƏRBAYCAN MƏKTƏBİ" - 100

# "Yeni məktəb" kimi yaranıb "Müəllimə kömək" edən

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elmi-nəzəri, pedaqoji "Azərbaycan məktəbi" jurnalı bu il özünün 100 yaşını qeyd edir.**

**Azərbaycan pedaqoji fikir tarixini araşdıran tədqiqatçılar "Azərbaycan məktəbi" jurnalının sələfi, ölkənin ilk pedaqoji nəşrləri kimi daha çox "Dəbistan" və "Rəhbər" jurnallarının adlarını çəkirlər. Əslində doğru yanaşma olsa da, biz daha uzağa gedərək ötən əsrdəki bir çox mətbu orqanlar kimi "Azərbaycan məktəbi"nin də "Əkinçi"nin toxumlarından cücərdiyini söyləyə bilərik. "Əkinçi"nin işıqlandırdığı yeni məktəblərin yaranması, kütləvi savadsızlıq və cəhalətlə mübarizə, yeni təlim və tərbiyə üsullarının tətbiqi 1924-cü ildə nəşrə başlayan "Yeni məktəb"in əsas prioriteti idi.**

**Qocaman pedaqoji tribuna sayılan "Azərbaycan məktəbi" öz fəaliyyəti dövründə 3 müxtəlif adla nəşr olunub. Jurnalın tarixinə nəzər salsaq, həmin adların hər birinin jurnalın çap olunduğu dövr və zamanın tələblərini əks etdirdiyini görərik.**

## "AZƏRBAYCAN MƏKTƏBİ"




**"Əkinçi"nin işıqlandırdığı yeni məktəblərin yaranması, kütləvi savadsızlıq və cəhalətlə mübarizə, yeni təlim və tərbiyə üsullarının tətbiqi 1924-cü ildə nəşrə başlayan "Yeni məktəb"in əsas prioriteti idi.**

**Qocaman pedaqoji tribuna sayılan "Azərbaycan məktəbi" öz fəaliyyəti dövründə 3 müxtəlif adla nəşr olunub.**

**Jurnalla əməkdaşlıq edən müəlliflər sırasında Azərbaycan uşaq ədəbiyyatının banisi A.Şaiq, publisist Ö.F.Nemanzadə, pedaqoqlar İ.Hikmət, Ə.Seyidov, M.Rəhimli, P.A.Fridolin kimi tanınmışların adları var idi.**

**Sonralar Azərbaycan elmində parlaq iz qoyan Ə.Dəmirçizadə, F.Qasımzadə, Ə.Sultanlı, C.Cəbrayılbəyli, A.Abdullayev jurnalın fəal əməkdaşlıq etdiyi müəlliflər sırasında idi.**

**İkinci Dünya müharibəsinin başlanması ilə məcmuənin fəaliyyətində fasilə yaranıb.**

**Jurnalın həyatında yeni mərhələ 1943-cü ilə təsadüf edir.**

**Bir əsrlik tarixə malik pedaqoji mətbu orqan Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallar içərisində özünəməxsus yer tutur.**

### "Yeni məktəb"

"Yeni məktəb" adı ilə nəşrə başlayan jurnal əslində XIX əsr maarifçilərinin arzuladığı və uğrunda mübarizə apardığı təhsil, maarif, məktəb, şagird-müəllim münasibəti, təlim-tərbiyə məsələlərini işıqlandırırdı. Jurnalın ilk nömrəsində onun missiyası barədə yazılırdı: "Jurnal hər bir müəllimin yaxın köməkçisi, maarif işlərini birləşdirən mərkəz, müəllim heyətinin yenilənməsi ilə bağlı görülən tədbirləri ardıcıl izləyən və yayan sanballı bir orqan vəzifəsini yerinə yetirməlidir". Burada məktəblərin üzərinə düşən məsuliyyət də vurğulanırdı: "Məktəbin ən mühüm, ən ümdə vəzifəsi budur: azad, fədakar və müşfiq (şəfqətli) insan yetişdirmək", "Məktəbin qayəsi şagirdi həyata hazırlamaqdır". Jurnalın meyarları bütün dövrlər üçün aktualdır. Azad fikirli, mərhəmətli, empatiya duyğusu formalaşmış nəslə bu gün də ehtiyac var.

"Yeni məktəb"in 1924-30-cu illər arasında çap olunan məqalələrində müəllimlərə dərslərin təşkili, mövzuların izahı, şagirdlərlə qurulan düzgün əks-əlaqə ilə bağlı verdiyi tövsiyələr əhəmiyyətini itirməyib. "Əgər müəllim həmişə özü danışırsa, şagirdlər də heç bir söz söyləmədən, heç bir sual sormadan dinləyirlərsə, əmin olmalıyıq ki, şagirdlər dərsdə sıxılırlar, dərsi ya başa düşmürlər və yaxud sevmirlər. Müəllim dərs verərkən onu dinləyir kimi görünür, fəqət daima dərsin bitməyini xəbər verən zəngin səsini gözləyirlər". 100 il öncə də jurnal şagirdlərin dərsi mexaniki əzbərləməsinə qarşı çıxır, "Dərs zamanı cocuqları işlətməli" yanaşmasını təbliğ edirdi.

Həyatın bütün sahələrində sovetləşmənin təsirinə baxmayaraq, jurnal təlim-tərbiyə işlərində Avropa və Amerika məktəblərini nümunə göstərirdi. Müəllimləri mütaliə mədəniyyətinə yiyələnməyə, yeni pedaqoji ədəbiyyat və trendlərlə tanış olmağa çağırırdı. Jurnalın 30-cu illərə qədərki fəaliyyətində savadsızlığın ləğvi, şagird özünüidarə təşkilatlarının yaradılması, təhsilin məzmununun təkmilləşdirilməsi, yeni təlim üsullarının tətbiqi ilə bağlı yazılara geniş yer verilib. Həmin dövrdə jurnalla əməkdaşlıq edən müəlliflər sırasında Azərbaycan uşaq ədəbiyyatının banisi A.Şaiq, publisist Ö.F.Nemanzadə, pedaqoqlar İ.Hikmət, Ə.Seyidov, M.Rəhimli, P.A.Fridolin kimi tanınmışların adları var idi.

### "Müəllimə kömək"

1930-cu idə jurnalın adı dəyişsə də missiyası olduğu kimi qaldı.

"Müəllimə kömək" adı ilə fəaliyyətinə davam edən məcmuənin məqsədi metodik işçilər, məktəb şuraları, təlim prosesində qarşıya çıxan məsələlərin izahı, pedaqoji yeniliklər, yeni çıxan tədris materialları və s. haqqında yenilənən məlumatları çatdırmaq idi.

"Müəllimə kömək" ayrı-ayrı fənləri əhatə etməklə hər nömrədə düşündürücü və öyrədici xarakterli materiallara üstünlük verirdi. Sonralar Azərbaycan elmində parlaq iz qoyan Ə.Dəmirçizadə, F.Qasımzadə, Ə.Sultanlı, C.Cəbrayılbəyli, A.Abdullayev jurnalın fəal əməkdaşlıq etdiyi müəlliflər sırasında idi. Pedaqogika tarixini araşdıran tədqiqatçılar jurnalda riyaziyyat, biologiya, fizika, kimya, tarix və dilçiliklə bağlı çap olunan məqalələrin bu gün də aktual olduğunu vurğulayırlar.

1930-cu illərin əvvəllərindəki saylarında jurnalda dərc edilən məqalələrin əksəriyyəti tədrisdə yenilik sayılan "proje metodu" ilə bağlı idi. Məqalələrdə yeni yanaşma belə izah olunurdu: "Bu metodun ən xarakterik momentləri məktəbi ictimai mühitə bağlamaq, uşaqların təşəbbüsünə istinad etmək, onların aktivliyinə geniş imkan vermək, onlarda kollektiv və planlı işləmək vərdişləri yaratmaq, hər bir fəaliyyətdə hesabat aparmaq təşkil edir".

Elə buradaca qeyd etmək yerinə düşər ki, jurnal bu yanaşması ilə qərb maarifçilərinin izi ilə getdiyini göstərirdi. Məlumat üçün bildirək ki, tarixi Sokrat dövründən başlayan proyekt əsaslı öyrənmə ("project based learning") XXI əsrdə də Avropa və Amerika təhsil sistemində əsas təlim metodlarından sayılır.

İkinci Dünya müharibəsinin başlanması ilə məcmuənin fəaliyyətində fasilə yaranıb.

Jurnalın həyatında yeni mərhələ 1943-cü ilə təsadüf edir.

### "Azərbaycan məktəbi"

80 ildən artıqdır ki, bu adla çıxan jurnal Azərbaycan pedaqoji mühitinin flaqmanı funksiyasını yerinə yetirib. Jurnalın 1947-72-ci illər arasında çap olunan məcmuələri onun təhsilin gələcəyi ilə bağlı uzaqgörən yanaşmasını təsdiqləyir. "İbtidai məktəb və məktəbəqədər tərbiyə" , "Fizika, riyaziyyat, informatika", "Kimya və biologiya tədrisi", "Əmək və politexnik təlim" və ayrı-ayrı fənlərinin yer aldığı məcmuələr bu gün də təhsil siyasətində ən çox diqqət yetirilən sahələri əhatə edir. Əminliklə demək olar ki, ötən əsrin 50-ci illərindən jurnal məktəbəqədər hazırlığın, STEM, peşə təhsilinin aktual olacağı günə öz töhfəsini verib.

Jurnalla əməkdaşlıq edən məşhur pedaqoqlar hələ yarım əsr öncədən XXI əsrdə PISA sorğularının tədqiqat obyekti olan "oxuduğunu anlamağın" vacibliyi, şagirdlərdə müstəqillik və sərbəst düşünmə bacarığının, yaradıcılıq qabiliyyətinin, mütaliə vərdişlərinin formalaşması metodlarını əhatə və inkişaf etdirən məqalələrlə çıxış ediblər.

Uzun illər jurnal təkcə tanınmış pedaqoq və alimlər üçün deyil, həm də ölkənin kənd rayonlarında çalışan müəllimlər üçün uğurlu platforma sayılıb. Əminliklə demək olar ki, "Azərbaycan məktəbi" ölkənin pedaqoji kadrları üçün yaradıcılıq laboratoriyası rolunu oynayıb.

Pedaqogika üzrə fəlsəfə doktoru Elnarə Məmmədovanın ""Azərbaycan məktəbi" jurnalının nəşri tarixindən (1924-1991-ci illər)" kitabında qeyd edildiyi kimi tanınmış pedaqoqlar jurnalın Azərbaycan təhsilində gördüyü işləri yüksək qiymətləndiriblər: Onun fəaliyyəti "pedaqoji irsimizin güzgüsü", "maarif işçilərinin yaxın məsləhətçisi", "Azərbaycan maarifinin əvəzsiz təbliğatçısı" və s. kimi epitetlərlə təsvir olunub.

Bir əsrlik tarixə malik pedaqoji mətbu orqan Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallar içərisində özünəməxsus yer tutur. Jurnal dövlətin elmin və təhsilin inkişaf strategiyasına, təhsilin beynəlxalq standartlara inteqrasiyasına yardım edir.

Hazırda "Azərbaycan məktəbi" ildə 4 dəfə olmaqla 5 minə yaxın tirajla çap olunur. Jurnalda təhsil, onun nəzəri və praktiki problemləri, ölkədə yürüdülən təhsil siyasəti, aparılan islahatlarla bağlı məqalələrə geniş yer verilir. Bura təkcə tanınmış alimlərin deyil, eyni zamanda gənc magistr və doktorantların da tribunasıdır."Azərbaycan məktəbi" ölkənin pedaqoji kadrlarının maariflənməsinə təkcə çap versiyası ilə deyil, saytı ilə də xidmət edir.

Jurnalın saytındakı "Aktual" bölməsində dünya pedaqoji mətbuatında çap edilən məqalələrin tərcüməsi, yeni yanaşma və trendlər, inkişaf etmiş ölkələrin uğurlu təhsil təcrübəsi, müəllim və şagirdlərin mütaliəsi üçün ədəbiyyat, şagirdlərin bədii zövqlərinin formalaşmasına xidmət edən film və tamaşalar haqqında yazılara yer ayrılır. Bölmənin "Ekovətəndaş" rubrikasında ölkəmizdə BMT-nin COP29 sammitinin keçirildiyi bu il ərzində ekoloji maarifçiliyin gücləndirilməsi, şagirdlərə təbii sərvətlərdən qənaətli istifadəni, planetin qorunmasını aşılayan, məktəb və təhsil ocaqlarında yaşıl enerjinin tətbiqini təbliğ edən məqalələr yerləşdirilib.

Ölkənin Zəfər tarixini yaşadığı bir dövrdə pedaqoji jurnalistikanın bayraqdarı olan "Azərbaycan məktəbi" 100 il əvvəl olduğu kimi yenə də maarifçiliyin keşiyindədir.

**Zemfira MƏMMƏDQIZI**

## "Azərbaycan məktəbi" jurnalının 100 illik yubiley tədbiri keçiriləcək




Dekabrın 10-da Elm və Təhsil Nazirliyinin akademik mətbu orqanı olan elmi-nəzəri, pedaqoji "Azərbaycan məktəbi" jurnalının 100 illik yubileyi münasibətilə tədbir keçiriləcək.

Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək tədbirdə nazirliyin rəsmiləri, tanınmış mədəniyyət və incəsənət xadimləri, ziyalılar, təhsil işçiləri və digər qonaqların iştirakı nəzərdə tutulur.

Tədbirin təşkilində məqsəd artıq 100-cü ildir ki, nəşr edilən jurnalın təhsil sisteminin yeniləşməsində, təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsində, mütərəqqi tədris metod və formalarının təbliğində, qabaqcıl təcrübənin öyrənilib yayılmasında, görkəmli alimlərin fikir və ideyalarının cəmiyyətə təqdim olunmasında, elmi, pedaqoji təfəkkürün formalaşmasında əhəmiyyətli və tarixi roluna diqqət çəkməkdir.

Qeyd edək ki, Azərbaycan və dünya təhsilinin qabaqcıl tendensiyalarını izləyən jurnal genişmiqyaslı islahatların nəticələrinin elmi mahiyyətini, beynəlxalq təcrübənin tətbiqi imkanlarını işıqlandıran zəngin tədqiqat faktlarını əhatə edir. Bəkir Çobanzadə, Məmməd Səid Ordubadi, Abdulla Şaiq, Mirzə İbrahimov, Mehdi Mehdizadə, Əbdül Əlizadə və Azərbaycanın elmi-ictimai fikrinin digər tanınmış simaları vaxtilə jurnalla sıx əməkdaşlıq əlaqələri qurub, özlərinin elmi fikirlərini, pedaqoji təcrübələrini məhz bu jurnal vasitəsilə oxuculara çatdırıblar.

Hazırda bir sıra indikatorlara əsasən müxtəlif indekslərə sahib olan jurnal daha çox istinad mənbəyinə çevrilmək yolunda irəliləyir və tədqiqatçıların müasir yanaşmalarının yayılmasında xüsusi rol oynayır.

# Sabahın alimləri bu günün şagirdləridir

## Fuad Qarayev:

## “Bu il müsabiqəyə süni intellekt də daxil edilməklə istiqamətlərin sayı 9-a çatdırılıb”



**Son illər Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi müxtəlif layihələr, müsabiqələr bizim neçə-neçə istedadlı məktəblilərimizi üzə çıxartmaqla yanaşı, eyni zamanda onların əldə etdikləri uğurların gələcək həyat yollarının müəyyənləşdirilməsindəki rolu danılmazdır. Müxtəlif səpkili belə tədbirlərin reallaşdırılması sayəsində ölkə ictimaiyyəti həmin “seçilmişləri” yaxından tanıyır və yeniyetmələr Azərbaycan təhsilinin ən parlaq zəkaları sayılırlar.**

**Orta ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin qatıldığı “Sabahın alimləri” Respublika Layihə Müsabiqəsi də məhz bizə neçə illərdir ki, məktəblilərimizi daha fərqli şəkildə tanıdır.**

**Elə Təhsil İnstitutunun direktor müavini Fuad Qarayevlə budəfəki söhbətimizin mövzusu da “Sabahın alimləri” ilə bağlıdır. Həmsöhbətimiz adıçəkilən layihənin əsas məqsədi, özəllikləri, bu tədris ilində özünün sayca 14-cüsünü keçirməyə hazırlaşan müsabiqədə nə kimi yeniliklərin olacağı və digər məsələlərlə bağlı “Azərbaycan müəllimi”nə müsahibə verib.**

### “Şagird hələ məktəb illərindən, parta arxasından elmə istiqamətlənir”

*– Fuad müəllim, son illər şagirdlərimizin müxtəlif səpkili müsabiqə, bilik yarışlarında, olimpiadalarda qazandıqları qələbələrinin sayının artdığını görürük. Bu uğurlu nəticələrin davamını “Sabahın alimləri” Respublika Layihə Müsabiqəsində də müşahidə edirik. Belə bir müsabiqənin keçirilməsi sizcə, Azərbaycan şagirdinə nə qazandırır?*

– İlk növbədə, mən bir qədər adıçəkilən müsabiqə barədə məlumat vermək istərdim. Ölkəmizdə elmi-tədqiqat işinə meyli olan və yüksək elmi-tədqiqat nəticələri əldə etmiş istedadlı şagirdlərin aşkarlanması məqsədilə Elm və Təhsil Nazirliyi tərəfindən 2012-ci ildən “Sabahın alimləri” Respublika Layihə Müsabiqəsi 8 istiqamət üzrə- riyaziyyat; fizika, astronomiya; kimya; biologiya (zoologiya, botanika, mikrobiologiya, genetika və molekulyar biologiya, biokimya); tibb və sağlamlıq; ekologiya, ətraf mühitin idarə olunması; mühəndislik; kompüter elmləri üzrə keçirilir. Müsabiqənin əsas məqsədi yuxarı sinif şagirdlərinin (IX - XI) elmi-texniki yaradıcılığa sövq edilməsi, onların müasir tədqiqat metodlarına yiyələnməsinin təmin edilməsi, bu sahədəki fəaliyyətlərinin stimullaşdırılması, elmi-tədqiqat və yaradıcılıq potensialı olan istedadlı şagirdlərin vaxtında aşkara çıxarılması, ali təhsil müəssisələri və elmi təşkilatlarla ümumtəhsil məktəbləri arasında əlaqələrin genişləndirilməsi, seçilmiş şagirdlərin beynəlxalq müsabiqəyə göndərilməsindən ibarətdir. Gördüyünüz kimi, artıq 12 ildir ki, biz sözügedən layihəni ölkənin bütün region və şəhərlərinin orta ümumtəhsil müəssisələrinin şagirdləri əhatə olunmaqla həyata keçiririk. Və qeyd etdiyim kimi, əsas məram məktəblərimizdə uşaqların elmi tədqiqat işlərinə marağının artırılmasıdır. Onu da qeyd edim ki, uşaqlar üçün elmi mühitin formalaşdırılması məqsədi ilə bizim əksər orta ümumtəhsil müəssisələrində “Kiçik Akademiya”lar fəaliyyət göstərir ki, məhz bu da şagirdlərə məktəb daxilində onları maraqlandıran mövzularla bağlı müəllimlərindən məsləhət almaq və istiqamətləndirilmək, eyni zamanda respublikanın tanınmış alimləri ilə görüşmək imkanı əldə etməklə yanaşı, həmçinin onların təhsil aldıqları məktəblərin elmi-tədqiqat institutları ilə birgə əməkdaşlıq baxımından xüsusi əhəmiyyət kəsb edir. Gördüyünüz kimi, şagird hələ məktəb illərindən, parta arxasından elmə istiqamətlənir. “Sabahın alimləri” müsabiqəsi də məhz elmə, tədqiqat işlərinin aparılmasına maraq göstərən yeniyetmələrimizə gələcəyin alimi olmaq şansını dəyərləndirməyə unikal şərait və imkan yaradır. Belə ki, müsabiqədə iştirak etmək hüququ qazanan şagirdlərimiz ali məktəblərimizdə fəaliyyət göstərən tanınmış alim-professor heyəti ilə sıx-sıx görüşür, elmi müzakirələr aparmaq imkanı əldə edir, hazırladıqları tədqiqat işlərini onlardan məsləhət alaraq daha da təkmilləşdirirlər.Və onu da xüsusi vurğulamaq istərdim ki, “Sabahın alimləri”nə maraq olduqca böyükdür və ildən-ilə burada iştirak etmək istəyənlərin sayı artmaqda, əhatə dairəsi genişlənməkdədir.

Ötən müddət ərzində 500-dən çox şagirdimiz “Sabahın alimləri” Respublika Layihə müsabiqəsində I,II, III yerlərə layiq görülüblər.

### “Yeniyetmələrimiz tədqiqat bacarıqlarını aşağı yaşlardan öyrənməlidirlər”

*– Layihə müsabiqəsində şagirdlərimiz daha çox hansı istiqamətlər üzrə elmi-tədqiqat işləri aparırlar?*

– Mühəndislik, tibb, robototexnika istiqamətləri üzrə layihələr daha çoxdur. Bilirsiniz, hər bir şagirdin meyil və maraqları fərqli olur. Burada müəllim faktoru da əsas rol oynayır. Müəllim öz fənnini şagirdə sevdirirsə, bilik və bacarıqları da yüksək səviyyədədirsə, şagirdin fənnə marağı daha çox olur, elmi tədqiqat işləri aparmağa həvəs göstərir.

Qeyd etdiyim kimi bu məsələlərdə müəllimin rolu çox böyükdür. Eyni zamanda şagirdlərin müəllimləri ilə etdikləri diskussiyalar, özlərinin maraqları, araşdırmaları, internet üzərində axtardıqları, müşahidə etdikləri məsələlər onları adıçəkilən istiqamətlər üzrə elmi-tədqiqat işləri aparmağa sövq edir. Onlarda artıq bir fikir formalaşır və onun əsasında da tədqiqat işinə başlamış olurlar.

Mən sizə deyim ki, ümumiyyətlə, dünyada baş verən bütün yeniliklər, innovasiyalar, startaplar hamısı belə kiçik addımlarla başlayır.

Biz indidən şagirdlərimizdə elmi-tədqiqat işləri aparmaq, araşdırma, analizetmə, ümumiləşdirmə bacarıqları inkişaf etdirməliyik ki, onlar sabah ali məktəblərdə təhsil alanda elmin ən müxtəlif istiqamətləri üzrə bacarıq və vərdişlərini yeniləyərək daha böyük tədqiqatlar apara bilsinlər. Yeniyetmələrimiz tədqiqat bacarıqlarını aşağı yaşlardan öyrənməlidirlər.

### “Şagirdlərimizin tədqiqat işləri ildən-ilə təkmilləşir, keyfiyyətli olur”

*– Artıq “Sabahın alimləri” XIV Respublika Layihə Müsabiqəsinə qeydiyyat başlayıb. Bu il keçiriləcək müsabiqəylə bağlı hansısa dəyişikliklər olubmu?*

– Bu il müsabiqəyə edilən dəyişiklik süni intellekt üzrə yeni istiqamətin əlavə olunmasıdır. Və bununla da müsabiqəyə süni intellekt də daxil edilməklə istiqamətlərin sayı 9-a çatdırılıb.

Düşünürük ki, bu sahə belə deyək, günümüzün ən aktual və maraqlı olan istiqamətlərindən biridir. Şagirdlərimizin həmin istiqamət üzrə də müxtəlif tədqiqat işləri aparacaqlarına, gözəl layihələr hazırlayacaqlarına əminik.

Çox yaxşı haldır ki, bizim şagirdlərimizin təqdim etdikləri layihələr, apardıqları tədqiqat işləri ildən-ilə daha da təkmilləşir, keyfiyyətli olur.

Onu da bildirim ki, müsabiqəyə qeydiyyat davam edir. Kifayət qədər layihə ilə müraciət edən şagirdlərimiz var.

### “Sabahın alimləri”, eyni zamanda ABŞ-də keçirilən ISEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinə milli seçim turudur

*-Fuad müəllim, “Sabahın alimləri” Respublika Layihə Müsabiqəsi, eyni zamanda ABŞ-də keçirilən ISEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinə milli seçim turudur. Ötən müddət ərzində nə qədər şagirdimiz bu nüfuzlu elm yarışmasında iştirak edib?*

– Bizim demək olar ki, hər il ayrı-ayrı istiqamətlər üzrə ISEF-də mükafat, sertifikat alan şagirdlərimiz olub. Bu günə qədər 10 şagirdimiz adıçəkilən yarışmada mükafatlara layiq görülüb. Ötən il isə Azərbaycan məktəbliləri ilk dəfə olaraq ABŞ-nin Beynəlxalq Elm və Mühəndislik ISEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisində medal qazanıblar. Xəzər Universitetinin “Dünya” məktəbinin X sinif şagirdləri Səid Aslanov və İbrahim Allahverdiyev “Biotibb və sağlamlıq elmləri” kateqoriyası üzrə bürünc medal əldə ediblər. Bundan başqa, həmin məktəbin X sinif şagirdi Nicat Tağızadə və 132-134 nömrəli Təhsil Kompleksinin X sinif şagirdi Xəzər Hüseynov “Robotika” istiqaməti üzrə xüsusi mükafata layiq görülüblər.

Beynəlxalq Elm və Mühəndislik Yarışması (ISEF) şagirdlər üçün dünyanın ən nüfuzlu elm müsabiqəsidir. Burada qaliblik sevincini yaşamaq şagirdlərimizin ən unudulmaz anlarına çevrilir. Bu tip müsabiqələrə qatılan şagirdlərimizin motivasiyaları elə prosesin özünün iştirakçısı olmaqdır. Yeniyetmələrimiz hazırladıqları layihələrin yüksək səviyyədə qiymətləndirilməsindən, dünyanın ən tanınmış alimləri ilə görüşməkdən, onlarla ünsiyyətdə olmaqdan xüsusi zövq alırlar. Apardığı tədqiqatın nəticəsini görmək, ordan qalib kimi qayıtmaq isə, ilk növbədə, Azərbaycan şagirdinin, bütövlükdə təhsilimizin uğurudur.

# “Aldığım bilik, əldə etdiyim təcrübə gələcək uğurlarımın açarıdır”

## Süni intellekt sahəsində dünyada tanınmış mütəxəssis olmaq istəyən Hümbət Əhmədovun uğur hekayəsi

**Yəqin razılaşarsınız ki, bu günün yeniyetmə və gəncləri yüksək intellektə malik olmaqla yanaşı, ən müasir texnologiyalarla işləmək bacarığı ilə də sözün yaxşı mənasında daha fərqli və yaradıcıdırlar. Ən maraqlısı da odur ki, onlarda bu istək və həvəs heç kəsin diktəsi olmadan, yönləndirilmədən olur. Yeniyetmə və gənclərimizin informasiya texnologiyalarına olan marağı, sevgisi isə təbii ki, gələcəyin gözəl proqramçısı, süni intellekt üzrə mütəxəssisi, bir sözlə, İT-nin onlara qazandıracağı ən mükəmməl bilik və bacarıqlar deməkdir.**




“Azərbaycan müəllimi”nin öz uğur hekayəsini yaradan növbəti qəhrəmanlarından biri Hümbət Əhmədovun da İT sahəsinə olan marağı hələ kiçik yaşlarından formalaşıb və getdikcə bu həvəs öyrənmək, təkmilləşmək və mükəmməl bilik və bacarıqlar əldə etmək müstəvisinə keçib.

Həmsöhbətimiz Hümbət Əhmədov Bakı şəhəri 25 nömrəli tam orta məktəbin IX sinif şagirdidir. Dərs əlaçısı olan yeniyetməmiz deyir ki, ən çox sevdiyi fənlər riyaziyyat, məntiq, ingilis dili və informatikadır. Sonuncusuna - informatika fənninə olan sevgisi isə özəldir. Çünki adıçəkilən fənni ona ilk dəfə sevdirən həm nənəsi, həm də müəllimi olan Nübar Əhmədova olub.

### “Digital Azerbaijan Talent School”da iştirak etməklə...

Hümbət deyir ki, İT sahəsini daha yaxşı bilmək, bu sahədə uğur qazanmaq üçün öyrənmək, özünü inkişaf etdirmək mütləqdir. Ona görə də biliyinə bilik qatmaq, təcrübə qazanmaq, mükəmməl təhsil almaq üçün həyata keçirilən layihələrə müraciət etməyi qərara alıb: " İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və Almaniyanın nüfuzlu universitetlərindən olan “Constructor University”nin birgə təşəbbüsü ilə istedadlı gənc proqramçılar üçün keçirilən “Digital Azerbaijan Talent School” layihəsi barədə məlumatlı idim. Layihədə 14 yaşdan yuxarı şagirdlər və universitet tələbələri iştirak edirlər. Mən də layihəyə müraciət etdim və qeydiyyatdan keçdim. Qəbul olunmağım barədə bildiriş alanda sevincimin hədd-hüdudu yox idi. Layihə çərçivəsində təlim düşərgəsinə qoşulmaqla Almaniyadan olan professor- müəllim heyəti tərəfindən keçilən dərslərə qatıldım. Hibrid (onlayn və oflayn) formatda təşkil olunan proqram 2024-cü ilin avqust-noyabr aylarını əhatə edirdi. Universitetin professor-müəllim heyətindən müasir rəqəmsal bacarıqların formalaşması üçün bilik və bacarıqlar öyrənirdik. Düşərgə proqramı 3 mərhələdən ibarət idi və təlimlər ingilis dilində keçirilirdi. 4 aylıq proqramın sonunda uğurla imtahan verərək müvəffəqiyyət sertifikatına layiq görüldüm. Onu da qeyd edim ki, düşərgə beynəlxalq proqramlaşdırma olimpiadalarına hazırlıq məqsədilə təşkil olunmuşdu. Ümidvaram ki, beynəlxalq olimpiadalara qatıldığım zaman öz bilik və bacarığımı layiqincə nümayiş etdirməklə ölkəmizə başucalığı gətirəcəyəm”.

Hümbətin iştirak etdiyi bu layihənin əsas məqsədlərindən biri həm də yeniyetmə və gənclərdə alqoritmik təfəkkür və peşəkar proqramlaşdırma biliklərini inkişaf etdirməkdir. Belə ki, “Digital Azerbaijan Talent School”da iştirak etməklə gənclər olimpiada tipli yarışlara, beynəlxalq təhsil proqramlarına qəbula hazırlaşmaqla bərabər, həmçinin proqramlaşdırma sahəsində gələcək karyera üçün bacarıqlar əldə etmək şansı qazanırlar.

Onu da qeyd edək ki, bu, Hümbətin iştirak etdiyi ilk layihə deyil. Belə ki, o keçən il də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşəbbüsü ilə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin nəzdində yaradılmış “Technest” təqaüd proqramını qazanıb. Və proqram çərçivəsində “Məktəblilər üçün elektronika” kursunu yüksək səviyyədə başa vuraraq müvəffəqiyyət sertifikatı ilə təltif olunub. Bu kursda bir çox layihələrdə iştirak edən şagirdimiz söyləyir ki, əsasən, Arduino proqramlaşdırma dili, elektronika, dövrələrin qurulması və s. kimi biliklərə yiyələnib. Kursda 60 nəfər arasında ən yüksək nəticəni də məhz elə Hümbət göstərib.

### Təlim və kursların İT sahəsi üzrə bilik və bacarıqlarının artırılmasındakı rolu...

Hazırda yeniyetməmiz “Technest” təqaüdü çərçivəsində “Techspace” şirkətində Python proqramlaşdırma dili üzrə təlimi bitirərək beynəlxalq dərəcəli imtahanlar verib: “Bilirsiniz, bu layihənin əsas məqsədi gənclərin informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarını təkmilləşdirmək, seçilmiş iştirakçıların öz ixtisas istiqaməti üzrə təlimçilik fəaliyyətinin formalaşmasında yardımçı olmaq, habelə gənclər arasında proqramlaşdırma sahəsinə marağı artırmaqdır. İştirak etdiyim adıçəkilən təlim alqoritmik təfəkkür və peşəkar proqramlaşdırma biliklərimin, İT sahəsi üzrə bilik və bacarıqlarımın artırılmasında mühüm rol oynayır.

İştirak etdiyi təlim və kursların hər birinin İT sahəsi üzrə bilik və bacarıqlarının artırılmasındakı önəmindən söz açan Hümbət, həmçinin ölkəmizdə tanınan nüfuzlu kurslarda proqramlaşdırma sahəsi üzrə təşkil edilən “ustad dərs”lərində də mütəmadi iştirak etdiyini, tanınmış ekspertlərdən dəyərli tövsiyə və məsləhətlər aldığını deyir: “Aldığım bilik, əldə etdiyim təcrübə gələcək uğurlarımın açarıdır”.

### “Öyrənmək, təcrübə qazanmaq babamdan mənə ötürülən ən qiymətli mirasdır”

14 yaşlı Hümbət Əhmədov elə bir ailədə doğulub ki, orada təhsilə, elmə hər zaman önəm verilir. “Öyrənmək, təcrübə qazanmaq babamdan mənə ötürülən ən qiymətli mirasdır”, - deyir qəhrəmanımız. Elə adını və soyadını daşıdığı babası Hümbət Əhmədov da təhsil işçisidir. Uzun illər Bakı Humanitar Kollecində (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec) müəllim kimi səmərəli fəaliyyət göstərib. Müəllimlikdən direktor müavini, direktor vəzifələrinə qədər yüksəlib. Neçə-neçə gəncin yüksəkixtisaslı kadrlar kimi yetişməsində əməyi olan Hümbət müəllim nəvəsinə də hər zaman elmli, bilikli olmağı tövsiyə edir.

Ən böyük arzusu dünyanın top 10 universitetlərindən birində İTsahəsi üzrə təhsil almaq olduğunu deyən yeniyetməmizin qarşısına qoyduğu digər hədəflərdən biri süni intellekt üzrə dünyaca tanınmış mütəxəssis olmaq, məşhur azərbaycanlı alim Lütfi Zadə irsinin davamçısı kimi tanınmaqdır.

Səhifəni hazırladı: Samirə KƏRİMOVA

# Dövlət Proqramı təqaüdçüləri



Dünyanın nüfuzlu universitetlərində təhsil alan azərbaycanlı gənclərin elmi-tədqiqat sahələrinə maraq göstərməsi və ciddi uğurlara imza atması ənənəyə çevrilib. Reytinqli universitetlərdə yüksəkixtisaslı peşəkarlar kimi yetişən və elm sahəsində öz sözünü deyə biləcək gənclərimizin hər biri uğuru ölkəmizin inkişafına töhfədir.

"Azərbaycan müəllimi" bu dəfə oxuculara "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" çərçivəsində ADA Universitetinin təşəbbüsü ilə yaradılan "İtaliya-Azərbaycan Universiteti" layihəsi üzrə İtaliyanın Bolonya Universitetində doktorantura təhsili alan Gülnarə Quluzadə ilə müsahibəni təqdim edir.

**Tanıtım:**

Quluzadə Gülnarə Rövşən qızı 27 iyul 1992-ci il Füzuli şəhərində anadan olub. Orta təhsilini Bakıdakı 96 nömrəli tam orta məktəbdə müvəffəqiyyətlə bitirib. Bakalavr təhsilini Bakı Dövlət Universitetinin "Ekoloji biologiya", magistratura təhsilini isə İtaliyanın Napoli Federico II Universitetinin "Biologiya" ixtisası üzrə bitirib. İtaliyanın "Internazionalizzazione dei Corsi di Studio" layihəsi əsasında təşkil olunan "Compagnia di San Paolo" dəstəyi ilə maliyyələşdirilən beynəlxalq təqaüdə layiq görülüb. Təhsilini uğurla başa vurduqdan sonra Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda (AQTİ) əmək fəaliyyətinə başlayıb. Hazırda həmin müəssisədə Keyfiyyət nəzarət departamentinin böyük mütəxəssisi vəzifəsində çalışır. AQTİ-də iş fəaliyyəti dövründə mütəmadi olaraq müxtəlif beynəlxalq elmi layihə təklifləri hazırlayıb, KİV-də qida təhlükəsizliyinin müxtəlif aspektləri haqqında ictimai maarifləndirmə işləri həyata keçirib, eyni zamanda laboratoriyalarda aparılan yerli və beynəlxalq audit yoxlamalarda, bir çox ölkələrdə (Tayland, BƏƏ, İsveç və s.) kadr potensialının inkişaf etdirilməsi məqsədilə müxtəlif təlimlərdə iştirak edib.

# "Alimlik qadının intellektual inkişafını önə çıxarır"

**Bolonya Universitetinin doktorantı ilə müsahibə**




### "İtaliyada doktorantura proqramları tədqiqat fəaliyyətinə əsaslanır"

*- İtaliya-Azərbaycan Universiteti layihəsi barədə məlumat verməyinizi istərdik. Bu layihəyə müraciət etməyiniz nə ilə bağlıdır?*

- Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən təsis olunan "İtaliya-Azərbaycan Universiteti" layihəsi ADA Universitetinin təşəbbüsü ilə yaradılan doktorantura proqramı İtaliyanın qabaqcıl ali təhsil müəssisələri, o cümlədən Bolonya Universiteti arasında əməkdaşlıq əsasında həyata keçirilir. Bu layihə Azərbaycanın təhsil sistemində kənd təsərrüfatı və qida elmləri sahəsini beynəlxalq standartlara uyğunlaşdırmaq və rəqabətədavamlı kadr hazırlığını artırmaq, eləcə də akademik və elmi əlaqələrin gücləndirilməsi məqsədi daşıyır.

İtaliyada doktorantura proqramları tədqiqat fəaliyyətinə əsaslanır. Bolonya Universiteti kimi qabaqcıl ali təhsil ocaqlarında doktorantlar geniş elmi resurslara, tədqiqat laboratoriyalarına və beynəlxalq əməkdaşlıq imkanlarına malik olurlar. Doktorantura təhsilinin bir hissəsi olaraq tələbələr mühazirələrdə, seminar və konfranslarda iştirak edir, eyni zamanda müxtəlif layihələr üzərində çalışırlar. Doktorantura proqramı layihəsinə müraciət etmə səbəbim ölkəmə daha yaxşı xidmət etmək və akademik karyeramda bilik və bacarıqlarımı daha yüksək səviyyəyə çatdırmaqdan ibarətdir. Beləliklə, doktorantura proqramını dünyanın reytinqli universitetlərindən biri olan İtaliyanın Bolonya Universitetinə uğurlu göstərici ilə qəbul alaraq iş təcrübəm zamanı mənə maraqlı olan mövzu istiqamətində tədqiqat işi aparıram. Ümumiyyətlə, İtaliya təhsil sistemini magistraturada oxuyarkən təcrübə etdiyim üçün mühitə adaptasiya olmaq və nəzəri-praktiki tədrisini mənimsəmək çox vaxtımı almadı.

### "Təhsilimi ən müasir molekulyar tədqiqat metodları üzrə aparıram"

*- İxtisasınız və tədqiqatlarınız barədə nə deyərdiniz? Bu ixtisası seçməyiniz nə ilə bağlıdır?*

- İtaliyada təhsilimi heyvan mənşəli qidalarda mikrobioloji və ən müasir molekulyar tədqiqat metodaları üzrə aparıram. Belə ki, doktorantura mövzum qida təhlükəsizliyi sahəsində vacib məsələlərdən biri olan süd və süd məhsullarında əmələ gələn patogen bakteriyaların aşkar edilməsi və kök səbəbinin ən müasir metodlardan biri olan Yeni Nəsil Sekvensləmə (Next-Generation Sequencing, Whole Genome Sequencing) metodu ilə təyini və eləcə də kontaminasiyanın izlənə bilirliliyin təmini, həmçinin Avropa Birliyinin reqlyasiyalarına əsasən, Azərbaycanda qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi sahəsində araşdırma aparmaqdan ibarətdir. Tədqiqat layihəmin əsas hədəflərindən biri də, süd və süd məhsullarında "fermadan süfrəyə" prinsipi əsasında qida patogenlərinin tədqiqi və araşdırmasını aparmaq, nəticədə İtaliya və Azərbaycan üzrə aktual qida patogenlərinin müqayisəli təhlilini həyata keçirməkdir.

*- Qida təhlükəsizliyi sahəsində tədqiqatlarınız tərəfdaş ali məktəb və ya Azərbaycan elmi üçün nə dərəcədə əhəmiyyətli və prioritetdir?*

- ADA Universitetinin nəzdində yaradılan İtaliya-Azərbaycan Universiteti və Boloniya Universiteti arasındakı əməkdaşlıq vasitəsilə, təhsil aldığım doktorantura proqramı akademik karyeramı yüksəltmək üçün mühüm imkanlar yaratmaqdadır. Qazanılan təcrübə və biliklər ADA Universitetinin Kənd Təsərrüfatı və Qida Elmləri Məktəbində kənd təsərrüfatı sahəsində kurikulum, tədris və tədqiqat imkanları, nəzəriyyə-təcrübə inteqrasiyasını, beynəlxalq əməkdaşlıqları, yerli innovasiyaları və sektorun rəqabət qabiliyyətini daha da təkmilləşdirib inkişaf etdirəcəkdir. İnanıram ki, PhD proqramı Azərbaycanda kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsində inkişafına töhfə verən perspektivli gənc kimi inkişafıma, eyni zamanda ADA Universitetinin nəzdində olan İtaliya-Azərbaycan Universitetində akademik əməkdaşlıq çərçivəsində heyvan sağlamlığı və qida təhlükəsizliyi üzrə gələcək pedaqoji fəaliyyətimdə ən müasir tədqiqat və təhsilin elmi problemlərinin həll edilməsinə köməklik göstərəcəkdir.

### "Bolonya Universiteti həm təhsil mühiti, həm də dünya səviyyəsində akademik keyfiyyəti ilə seçilir"

*- Hazırda hansı məsələlər üzərində tədqiqat aparırsınız? Elmi məqalələriniz varmı?*

- Doktorantura proqramı müddətində Bolonya Universitetinin "DİMEVET" fermasından, eləcə də müxtəlif regionlarda yerləşən, tanınan bir neçə pendir istehsal edilən iri sənaye müəssisələrindən "fermadan süfrəyə" prinsiplərinə uyğun olaraq çiy süd və süd məhsulları nümunələrinin toplanaraq mikrobioloji analiz metodlarının tətbiqi üzrə bacarıqlarımı inkişaf etdirmişəm. Bundan əlavə, doktorantura proqramı üzrə elmi rəhbərimin rəhbərlik etdiyi və Avropa Birliyi Komissiyasının dəstəyi ilə həyata keçirilən beynəlxalq miqyaslı MASAF "Stalla Modello" layihəsində komanda üzvü və iştirakçısı kimi tədqiqat işlərinə praktiki və nəzəri dəstəyim davam edir.

*- Avropanın və İtaliyanın ən qədim ali məktəblərindən olan Bolonya Universitetinin təhsil mühiti, təhsil ənənələri, tələbələr üçün yaradılmış imkanlar barədə nə deyərdiniz?*

- Bolonya Universiteti (Universita di Bologna) 1088-ci ildə təsis edilməsi ilə Avropanın və dünyanın ən qədim ali təhsil müəssisələrindən biridir. Bu universitet, həm təhsil mühiti, həm də dünya səviyyəsində akademik keyfiyyəti ilə seçilir. Bolonya Universiteti beynəlxalq tələbələr üçün müxtəlif təqaüd proqramları təqdim edir, eləcə də tələbələrin karyera inkişafını dəstəkləmək üçün müxtəlif karyera xidmətləri, iş yarmarkaları, təcrübə proqramları və peşəkar mentorluq imkanları yaradır. Əcnəbi tələbələr Erasmus+ və digər beynəlxalq proqramlar vasitəsilə müxtəlif ölkələrdə təhsil alaraq daha fərqli təcrübələr qazana bilərlər. Sadaladığım imkanlardan bütün təhsil dərəcələrində yararlanmaq olar. Bolonya Universitetinin doktorantura təhsil səviyyəsində tədris edilən seminarların imtahan şərtləri yoxdur. Buradakı məqsəd, tələbənin bütün zaman və konsentrasiyasını öz tədqiqat materialına, şəxsi inkişafına və müxtəlif ölkələrdə təcrübə proqramlarında iştirak imkanlarının artmasına dəstək göstərməkdir.

### "Qadınların elmdə iştirakı əhəmiyyətli dərəcədə artıb"

*- Son vaxtlar PhD namizədlər arasında qadınların sayı artır. Öz nümunənizdə bunu necə izah edərdiniz?*

- Sevindirici haldır ki, qadınların elmdə iştirakı son onilliklərdə əhəmiyyətli dərəcədə artıb. Gender bərabərliyi və qadınların professional həyatda iştirakını təşviq edən siyasətlər və təşəbbüslər, məsələn, təqaüd proqramları, mentorluq və şəbəkələşmə və s. kimi imkanlar nəticəsində qadınlar artıq daha çox elmi tədqiqatlarda yer alırlar. Tariximizə nəzər saldıqda, müxtəlif elm sahələrində tanınmış ilk elmi-tədqiqatçı alim qadınlar Zərifə Əliyeva, Aidə İmanquliyeva, İzzət Orucova,Validə Tutayuq, Tamilla Nəsirova, Zərifə Əliyarova milli elmin inkişafında mühüm rol oynamaqla, müxtəlif sahələrdə əhəmiyyətli işlər görərək elmə töhfələr vermişlər. Zənnimcə, qadınların doktorantura proqramlarına cəlb olunması, elmi-tədqiqatlara maraq və həvəsi tariximizdə və müasir dövrdə uğurlu qadınların nümunələrindən qaynaqlanır.

Düşünürəm ki, tədqiqat yolumun başlanğıcında olsam da, artıq müəyyən qədər iş və təhsil təcrübəm var: "Qadınların bir-birinə dəstək olması həm sağlam rəqabəti formalaşdırır, həm də cəmiyyətimizdə həmin qadınların fəaliyyət göstərdikləri sahələrin təsir gücünü artırır".

### "Karyerada alimlik statusu, qadının iş həyatında uğur əldə etməsi deməkdir"

*- Alimlik qadın üçün nə deməkdir? Özünütəsdiq, karyera, maraq..*

- Karyerada alimlik statusu, qadının iş həyatında uğur əldə etməsi və elmi sahədə yüksək mövqeyə gəlməsi deməkdir. Qadınların elmi və intellektual sahələrə olan marağı, yeni biliklərə, araşdırmalara və innovasiyalara yönəlmələri onların şəxsi inkişaflarını və cəmiyyətə töhfə vermələrini təmin edir. Alimlik, sadəcə peşəkar bir status deyil, həm də bir qadının özünü ifadə etməsi, dünyaya baxışını və bütöv bir cəmiyyətə müsbət təsir göstərməsi ilə əlaqəli bir anlayışdır. Fikirlərimə Azərbaycanın tanınmış xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin dəyərli sözlərini əlavə etmək istəyirəm: "Bir kişi elm alarsa, o ancaq təhsilli bir insan olar. Amma əgər bir qadın təhsil alıbsa, o, həm təhsilli qadın, həm də bilikli, savadlı bir anadır. Savadlı anaların isə gələcəkdə düzgün cəmiyyətin qurulmasında əhəmiyyəti böyükdür".

### Dövlət Proqramı daha geniş təhsil və karyera imkanları yaradır

*- "2019-2023-cü illər üçün Dövlət Proqramı"nın əhəmiyyəti və həyatınızda rolu barədə nə deyə bilərsiniz?*

-"2019-2023-cü illər üçün Dövlət Proqramı"nın ümumilikdə, əhəmiyyəti və həyatımızdakı roluna baxsaq, bizləri daha yüksək səviyyəli təhsil almağa təşviq edən, intellektual inkişafımızı stimullaşdıran bir strateji addım hesab edirəm. Bu, mənim kimi bir sıra gənclər üçün daha geniş təhsil və karyera imkanları yaradır. Belə ki, bir tərəfdən yeni iş imkanları, təhsil sahəsindəki irəliləyişlər, digər tərəfdən də qlobal səviyyədə baş verən yeniliklərlə daha yaxından tanış olmaq və əlaqə qurmaq üçün qapılar açır. Nəticə olaraq, "2019-2023-cü illər üçün Dövlət Proqramı" mənim həyatımda inkişafın, tərəqqinin və yeni imkanların açıldığı bir yol xəritəsidir.

### "Azərbaycan elmində yeni təşəbbüslərə imza atmaq niyyətindəyəm"

*- Azərbaycanda yeni universitetlər açılır. Bu ildən İtaliya-Azərbaycan Universitetinə də qəbul oldu. Bu yeniliklərə münasibətiniz? Xüsusən də ADA Universitetinin xaricdə təhsil siyasəti barədə nə deyərdiniz?*

- İtaliya-Azərbaycan Universitetinin açılması, Azərbaycanda təhsilin beynəlxalq standartlara uyğunlaşmasına və xarici təhsil sistemləri ilə inteqrasiyasına bir nümunədir. Tələbələr burada təkcə nəzəri biliklər əldə etməyəcək, həm də praktiki təcrübə qazanaraq daha geniş dünyagörüşünə sahib olacaqlar. Bu, Azərbaycan gənclərinin qlobal arenada rəqabət qabiliyyətini artıracaq və onlara beynəlxalq iş imkanları açacaqdır.

ADA Universiteti, xüsusilə xaricdə təhsil siyasətindəki fəallığı ilə tanınan bir təhsil müəssisəsidir. Bu universitetin xaricdə təhsil sahəsindəki yanaşması və strateji planları olduqca müasir və gəncləri qlobal təhsil dünyasına inteqrasiya etməsinə yönəlmişdir. ADA-nın xaricdə təhsil siyasətinin əsas üstünlüklərindən biri də təcrübə mübadiləsi proqramlarıdır. Bu proqramlar vasitəsilə tələbələr dünyanın müxtəlif ölkələrində təhsil alaraq fərqli mədəniyyətləri və təhsil sistemlərini təcrübə etmək imkanı əldə edirlər. Bu cür təcrübələr gənclərin yalnız akademik sahədə deyil, həm də sosial və mədəni baxımdan daha zəngin olmalarına kömək edir. Məncə, bu tip universitetlərin açılması, tələbələrin dünya səviyyəsində təhsil almalarına və gələcəkdə daha geniş imkanlar əldə etmələrinə şərait yaradır. Bu, həm də Azərbaycanın beynəlxalq təhsil arenasında daha çox tanınmasına və ölkəmizin təhsil səviyyəsinin yüksəlməsinə səbəb olacaqdır.

*- Gələcək hədəfləriniz barədə...*

-Təhsildən sonrakı hədəfim ADA-nın nəzdində fəaliyyət göstərəcək İtaliya-Azərbaycan Universitetində qida təhlükəsizliyi sahəsi üzrə Azərbaycan üçün praktiki əhəmiyyəti olan bir sıra metodların laboratoriyada optimallaşdırılması, həmçinin, bu sahədə maraqlı olan gənc kadrlardan ibarət araşdırma komandasını yaradaraq müxtəlif beynəlxalq layihələri qazanmaqdır. Ən yeni texnologiyalardan müstəqil istifadə və müasir elmi yanaşmaları öyrənməklə Azərbaycanda qida təhlükəsizliyi sahəsində gənc kadrları və tələbələri mövcud imkanlar çərçivəsində maarifləndirməyi planlayıram. Eyni zamanda ölkəmizdə qida təhlükəsizliyi sahəsində aparıcı rol oynayan AQTA/AQTİ və yerli universitetlər, həm də dünyanın qabaqcıl araşdırma institutları arasında əməkdaşlıq çərçivəsində ekspert və beynəlxalq dərəcəli elm adamlarının mübadilələrini həyata keçirərək Azərbaycan elmində bu sahədə yeni təşəbbüslərə imza atmaq niyyətindəyəm.

**Oruc MUSTAFAYEV**

# Divar üzərində maraqlı rəsmlər çəkən məktəbli

**O, təkcə tablolar, kətanlar üzərində deyil, həm də divar üzərində maraqlı rəsmlər çəkir. Uşaqlıqdan rəsmə böyük həvəsi olan Nuray bu peşəni müəllim yanına getmədən, özü sərbəst şəkildə öyrənməyə çalışıb. Lakin daha sonra bu sahə üzrə bacarıqlarını təkmilləşdirməyə qərar verib.**



Paytaxtdakı 322 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Nuray Əliyeva deyir ki, məktəblərində siniflərarası keçirilən rəsm yarışmasında birinci yeri tutduqdan sonra öz istedad və bacarığını yoxlamaq üçün 3 rəsm əsəri ilə Binə Mədəniyyət Mərkəzində təşkil olunan rəsm müsabiqəsinə qatılıb: “Bu müsabiqə, əsasən, sərbəst texnikaya aid idi. İstədiyimiz rəsmi çəkə bilərdik. “Musiqi bizim ruhumuzdur”, “Qadınların görünməyən ruhu”, “Anılmaz duyğular” adlı rəsmlərim münsiflər heyəti tərəfindən bəyənildi və 103 nəfərdən 6 nəfər növbəti tura vəsiqə aldı”.

Nuray növbəti tura 12 rəsmi ilə qatılıb. “Rəng ahəngi”, “Musiqi həyatım”, “İnanclı həyat”, “Bədahətən çalar”, “Boyalı gəncliyim”, “Xəyallarımın ümidi”, “Axış”, “İldırımlı çalar”, “Naxışlı xalça”, “Müharibənin bitməyən fəryadı”, “Çağırış” və “Həyatın mübarizəsi”, xüsusilə 44 günlük Vətən müharibəsinə həsr etdiyi “Dəmir yumruq” əsərləri seyrçilər tərəfindən bəyənilib: “Milli və müasir üslubda işlədiyim kompozisiyalar, təbiət tabloları həmişə tamaşaçılarda xoş ovqat yaradıb. Əlbəttə, rəsm müəllimim Vüqar Muradovun əməyi sayəsində bu uğurlara nail olmuşam. Sərgiyə çıxardığım rəsmlərimdən bəzilərini satmışam, bəzilərini isə hədiyyə etmişəm. Amma daha çox sifarişlər qəbul edirəm, çünki tablolar, kətanlar üzərində işləməyimə baxmayaraq, divar üzərində də rəsmlər çəkməyi bacarıram”.

Məktəblinin sözlərinə görə, Beynəlxalq Muğam Mərkəzində, Bakı Xətai Sənət Mərkəzində keçirdiyi sərgilərində 20-yə yaxın əsəri nümayiş olunub və tamaşaçılar tərəfindən bəyənilib.

Gənc istedad eyni zamanda “Zirvə” Uşaq Akademiyasının onlayn rəsm klubunun sədri seçilib. O, kiçikyaşlı həvəskar rəssamlara boyalar, rənglərlə bağlı təlimlər, müsabiqələr keçirir, onlara bu peşəni sevdirməyə çalışır. Arzusu Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbəsi olmaqdır”.

**Sifai SƏFƏROVA**


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-64-00
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 36973 **Sifariş** 2841
**Məsul növbətçi:** S.Kərimova




# Etibarsız sayılır



**Bakı Dövlət Universiteti** tərəfindən 2000-ci ildə Məmmədov Anar Vilayət oğluna verilmiş A-032820 nömrəli bakalavr diplomu və 2002-ci ildə verilmiş MNA-007134 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Rəhimova (Məmmədova) Arzu Arif qızına verilmiş B-030323 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Dəmirçi kənd tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Nurəliyeva Xəyalə Mirzə qızına verilmiş B-518747 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2022-ci ildə Məmmədov Ruslan Elçin oğluna verilmiş C-141278 nömrəli bakalavr diplomu və diploma əlavə tapıldığı üçün etibarlı sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2022-ci ildə Khalilov Tural Vilayət oğluna verilmiş C-152178 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Daş Salahlı kənd 2 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Rəfiyeva Ləman Vaqif qızına verilmiş B-326268 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 13 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Aşkın Yarən Yaqub qızına verilmiş E-022301 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2018-ci ildə Allahverdiyeva Fidan Saleh qızına verilmiş C-005779 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**8 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2006-cı ildə Hüseynova Xatirə İbrahim qızına verilmiş BB-018818 nömrəli diplom və attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa rayon** Ərəzin kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Əlizadə Sinan Mayis oğluna verilmiş E-308252 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Xaltan kənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Yaqubov Məhəmməd Babayar oğluna verilmiş 626149 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 214 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Əliyev Sənan İlqar oğluna verilmiş E-547866 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın şəhər** 2 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş İbadova Nuriyyə Tofiq qızına verilmiş A-406961 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 12 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İbadova Rəna Tofiq qızına verilmiş B-039540 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2014-cü ildə Vəliyev Ruslan İkram oğluna verilmiş A-024705 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Vəliyev Şahin Şahmar oğluna verilmiş 389491 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 239 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Həsənli Novruz Məhərrəm oğluna verilmiş B-590151 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** İmamqulubəyli qəsəbə tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Muxtarova Səhər Xəqani qızına verilmiş A-078685 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Qışlaq kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Hümbətova Çimnaz Vaqif qızına verilmiş B-236848 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 17 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş İsgəndərli Zöhrab Ramiz oğluna verilmiş B-621173 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Baharabad qəsəbə tam orta məktəbi 2005-ci ildə bitirmiş Tursunova (Veysəlova) Zenfira Maxamadcan qızına verilmiş A-174845 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Xanlıqlar kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Babayeva Mətanət Azad qızına verilmiş A-410763 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Səmədov Hüseyn Azad oğluna verilmiş C-188900 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı şəhər** 2 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Mirzəyev Azər Əlövsət oğluna verilmiş A-039493 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 4 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Abdulqədirova Arzu Vüsal qızına verilmiş A-297951 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Kəpənəkçi kənd tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Xəlilov Bəhlul Cəlil oğluna verilmiş 845289 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Sumaylı kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Mirzəyeva (Məmmədova) Aynurə Nəsib qızına verilmiş A-725896 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 5 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Şabanova Vəsilə Ramazan qızına verilmiş B-328740 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Bambaşı kənd tam orta məktəbi (qiyabi) 1989-cu ildə bitirmiş Şükürova (Bağırova) Almaz Şahüseyn qızına verilmiş A-558927 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Dəmirçi kənd ümumi orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Səfərova Sədaqət Firudin qızına verilmiş A-038016 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Dəmirçi kənd ümumi orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Mirzəyev Elvar Qənbəroviçə verilmiş A-240837 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutu** tərəfindən 1999-cu ildə Quliyeva Gültəkin Akif qızına verilmiş N-002713 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Qamqam kənd tam orta ümumtəhsil məktəbinin IX sinfini 2016-cı ildə bitirmiş Niftəliyev Vüsal Kəbir oğluna verilmiş A-678421 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Xıl kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Quliyeva Xəyalə Həzərxan qızına verilmiş A-055665 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qasımlı kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Ağazadə Səbinə Natiq qızına verilmiş A-466975 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin** (keçmiş Dövlət Dəmir Yolu Liseyi) tərəfindən 2011-ci ildə Orucov Zirəddin Asim oğluna verilmiş BB-061514 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Həsənova Nilufər İlham qızına verilmiş B-161923 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2011-ci ildə Həsənova Nilufər İlham qızına verilmiş MNB-023329 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1999-cu ildə Cəfərov Eldar Əlisa oğluna verilmiş AB-I-043596 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2002-ci ildə Aslanov Seymur Aslan oğluna verilmiş A-117404 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Cəfərxanlı kənd tam orta məktəbinin IX sinfini 1996-cı ildə bitirmiş Bədirov İbrahim Əli oğluna verilmiş 156533 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2009-cu ildə Şəmmədov Kamal Fazil oğluna verilmiş B-155670 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Kəlbəhüseynli kənd tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş İbrahimli Nərgiz Mirələm qızına verilmiş C-841526 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Vizəzəmin kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Ağayev Xalid Müqabil oğluna verilmiş A-898964 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 6 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Mahmudov Samir Tərlan oğluna verilmiş E-228526 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Masazır kənd 2 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Quliyev İbrahim Qəfər oğluna verilmiş A-208380 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** H.Mahmudbəyov adına 2 nömrəli Texniki Humanitar Liseyi 2009-cu ildə bitirmiş Məhyəddinov Həsən Hümmbət oğluna verilmiş B-591942 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər-Cəyir kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Qarayev Sənan Rizvan oğluna verilmiş A-576466 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Təklə kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Musayeva (Mirzəyeva) Arifə Yolçu qızına verilmiş 17 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ocaqlı kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Məlikova Faxmirə Fəxrəddin qızına verilmiş 537061 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Rzayeva Vüsalə Elxan qızına verilmiş A-044231 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 81 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məhərrəmova Alsu Eldəniz qızına verilmiş E-554161 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Kolleci** tərəfindən 2015-ci ildə Babayeva Lalə Səxavət qızına verilmiş AA-056707 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Xal-xal kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Ələkbərova (Zeynalova) Şəfəq Allahverdi qızına verilmiş A-741642 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.